RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 225 (9970) 21 oktyabr 2025-ci il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana dövlət səfəri başlayıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 20-də Qazaxıstan Respublikasına dövlət səfərinə gedib.**

AZƏRTAC xəbər verir ki, Astana şəhərinin Beynəlxalq Aeroportunda Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev qarşıladı.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.



## Prezident İlham ƏLİYEV: “Qazaxıstanın Azərbaycan ilə münasibətləri qardaşlıq və etimad nümunəsidir”



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində “Kazinform”a eksklüziv müsahibəsində iki ölkə arasında siyasi dialoqun yüksək səviyyəsindən, nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, həmçinin “yaşıl enerji“ sahəsində birgə işin perspektivlərindən və Türk Dövlətləri Təşkilatı çərçivəsində təşəbbüslərdən bəhs edib. AZƏRTAC müsahibəni təqdim edir.

2

## Prezident İlham Əliyev Zəngilanın azad olunmasının ildönümü münasibətilə paylaşım edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında Zəngilan şəhərinin işğaldan azad olunmasının 5-ci ildönümü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda "Zəfər Tariximiz: 20 Oktyabr 2020-ci il Zəngilan" sözləri yer alıb.

## Azərbaycan mədəni və mənəvi kapitalı ilə qlobal miqyasda fərqlənir



Azərbaycan ilə Vatikan arasında münasibətlər son illərdə yüksək etimad və qarşılıqlı hörmətə əsaslanır. Bu əlaqələr ilkin mərhələdə mədəni və dini abidələrin bərpasına yönəlmişdi, lakin bu gün artıq elmi tədqiqatlar, mədəni mübadilələr və təhsil sahəsində birgə layihələrlə genişlənib. Heydər Əliyev Fondunun Vatikanla layihələri - Kommodilla, Sebastian, Marçelino və Pietro katakombalarının bərpası, Müqəddəs Pyotr və Pavel bazilikalarındakı restavrasiya işləri bu hörmətin mədəni diplomatiya dili ilə ifadəsidir.

5

## İki dövlət, bir hədəf

### Azərbaycan-Qazaxıstan iqtisadi münasibətləri bütövlükdə türk dünyasının güclənməsinə xidmət edir

Bu gün iki ölkə arasında təkcə enerji və nəqliyyat deyil, logistika, kənd təsərrüfatı və sənaye sahələrində də əməkdaşlıq önəmli yer tutur. Xəzər dənizi üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizləri, xüsusən Orta dəhliz layihəsi çərçivəsində birgə fəaliyyət Azərbaycanın və Qazaxıstanın həm regional, həm də qlobal ticarət sistemindəki rollarını gücləndirir. Azərbaycan və Qazaxıstan arasında birgə iqtisadi komissiyaların fəaliyyəti, sərmayə qoyuluşu, həmçinin iş adamları arasında əlaqələrin genişləndirilməsi də iqtisadi münasibətlərin davamlı inkişafına xidmət edir. Bunlardan əlavə, nəqliyyat-kommunikasiya xətlərinin genişləndirilməsi, xüsusən 44 günlük Vətən müharibəsindən sonrakı dövrün reallığı olan Zəngəzur dəhlizinin (TRIPP) gündəmə gəlməsi Qazaxıstan üçün strateji baxımdan yeni imkanlar açır. Bu dəhliz regionun birləşdirilməsi və Avrasiya məkanında ticarət, logistika sahəsində canlanma yaratmaq baxımından strateji əhəmiyyətə malikdir. Çox vacib haldır ki, Azərbaycan və Qazaxıstan bu məsələdə ortaq maraqlara malikdir və məqsədləri üst-üstə düşür.

İki ölkənin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilməsini hədəfləyən böyük layihələrdən biri də "Rəqəmsal İpək yolu"dur.



7

## Avropaya yeni mənbədən və yeni marşrutla qaz axını



Yeni çağırışlar qarşısında Avropanın qaza tələbatı getdikcə artır. Odur ki, Azərbaycandan mavi yanacaq idxal etmək istəyən ölkələrin də sayı çoxalır. Yeri gəlmişkən: bu gün Azərbaycan 14 ölkəyə qaz ixrac edir. Bunlardan 10-u Avropa ölkəsi, o cümlədən 8-i Avropa İttifaqının üzvüdür.

8



# Prezident İlham ƏLİYEV: “Qazaxıstanın Azərbaycan ilə münasibətləri qardaşlıq və etimad nümunəsidir”





*Əvvəli 1-ci səh.*

*- Hörmətli cənab Prezident, ən yaxın vaxtda Sizin Qazaxıstan Respublikasına dövlət səfəriniz gözlənilir. Azərbaycan ilə Qazaxıstan arasında siyasi münasibətlərin hazırkı səviyyəsini necə xarakterizə edərdiniz və qarşıdakı səfərdən gözləntiləriniz nədən ibarətdir?*

- Azərbaycan ilə Qazaxıstan arasında siyasi əlaqələr hazırda yüksək dərəcədə möhkəmlik və qarşılıqlı etimad ilə xarakterizə olunur. Ötən onilliklər ərzində xalqlarımız arasında tarixi qardaşlığa, dostluğa və qarşılıqlı dəstəyə, ortaq türk kimliyinin möhkəm təməlinə, oxşar mədəni ənənələrə və mənəvi dəyərlərə əsaslanaraq, biz həqiqi strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri qurmuşuq.

Sözsüz ki, ikitərəfli əməkdaşlığın möhkəmlənməsinə töhfə verən mühüm amil ən yüksək səviyyədə aparılan və dövlətlərarası əlaqələrin bütün səviyyələrdə hərtərəfli dərinləşməsinə təkan verən fəal və konstruktiv dialoqdur.

Bu, son üç ildə mənim qardaş ölkəyə yeddinci səfərimdir. Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır. Bu uğurlar münasibətilə bütün qardaş Qazaxıstan xalqını təbrik etmək istərdim. Həmin müddət ərzində Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına müştərək səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli şəhərində Kurmanqazı adına Uşaq İncəsənət Mərkəzinin tikintisinə görə qardaş Qazaxıstana bir daha minnətdarlığımı bildirmək istəyirəm. Bu mərkəz mühüm mədəni-maarif müəssisəsinə çevrilib, hazırda orada 100-ə yaxın uşaq təhsil alır.

Biz ötən illər ərzində möhkəm hüquq-müqavilə bazası - təqribən 170 sənəd işləyib hazırlamışıq, siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaratmışıq. Bu il 20 illiyini qeyd etdiyimiz Azərbaycan ilə Qazaxıstan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında müqavilənin əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Bu sənəd Azərbaycan-Qazaxıstan əməkdaşlığının müxtəlif sektorlarda inkişafının etibarlı təməlini qoyub və ötən illər ərzində ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlıq əhəmiyyətli dərəcədə genişlənib.

Həmçinin ilk iclası Qazaxıstan Prezidentinin ötən il Azərbaycana dövlət səfəri zamanı keçirilən Ali Dövlətlərarası Şuranın əhəmiyyətini qeyd etmək lazımdır. Astanada keçiriləcək ikinci iclasda qarşılıqlı faydalı əməkdaşlığın perspektivləri və Azərbaycan-Qazaxıstan münasibətlərinin yeni səviyyəyə qaldırılması istiqamətində atılacaq addımlar müzakirə olunacaq.

Azərbaycan və Qazaxıstan, həmçinin çoxtərəfli formatlarda, xüsusilə beynəlxalq və regional təşkilatlar, o cümlədən BMT, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri Müşavirəsi və digərləri çərçivəsində də səmərəli əməkdaşlıq edir. Ölkələrimiz beynəlxalq arenada bir-birini dəstəkləyir, bir çox məsələlərdə ortaq mövqeyi bölüşür.

*- Son illər Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlıq necə inkişaf edir?*

- Azərbaycan ilə Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlığın spektri çox genişdir. İqtisadi-ticari qarşılıqlı fəaliyyətin davamlı artımını məmnunluqla qeyd edirik. Hər iki ölkə ardıcıl olaraq birgə təşəbbüslər həyata keçirir, iqtisadiyyatın müxtəlif sektorlarında əməkdaşlığı genişləndirir. Bu proses məqsədyönlü dövlət siyasəti, biznes icmalarının nümayəndələri arasında fəal dialoq, qarşılıqlı faydalı və tərəfdaşlıq münasibətlərinin inkişafına ümumi sadiqlik sayəsində mümkün olub.

Bu günə qədər ölkədə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitinə yüksək etimadı təsdiq edir və iqtisadi qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır.

Qarşılıqlı ticarətdə də müsbət dinamika özünü aydın şəkildə göstərir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib. 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çox olmaqla, 547 milyon dollara çatıb. Bu artım Orta dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır.



Bununla yanaşı, Azərbaycan ilə Qazaxıstan arasında investisiya əməkdaşlığı möhkəmlənir: Azərbaycanın Qazaxıstan iqtisadiyyatına investisiyası 225 milyon dollara, Qazaxıstanın isə Azərbaycana sərmayəsi 136 milyon dollara çatıb. Bu göstəricilər tərəflərin uzunmüddətli tərəfdaşlığa və davamlı inkişafa qarşılıqlı marağını nümayiş etdirir.

*- Azərbaycan ilə Qazaxıstan arasında nəqliyyat-logistika və neft-qaz sektorlarında, həmçinin "yaşıl enerji" sahəsində əməkdaşlığın səviyyəsini necə qiymətləndirirsiniz? Orta dəhlizin hər iki ölkə üçün əhəmiyyəti nədən ibarətdir? Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün hansı addımlar atılır?*

- Azərbaycan ilə Qazaxıstan arasında nəqliyyat-logistika əməkdaşlığı iqtisadi artım və regional bazarların inteqrasiyası üçün yeni imkanlar açan strateji əhəmiyyətli istiqamətdir. İnfrastrukturun davamlı inkişafı, tarif və logistika üstünlüklərinin genişləndirilməsi daşımaların həcminin artırılması və ikitərəfli münasibətlərin daha da möhkəmlənməsi üçün əlverişli şərait yaradır.

Hazırda bu qarşılıqlı fəaliyyət sahəsi əhəmiyyətli tərəqqi nümayiş etdirir. 2024-cü ildə Azərbaycan ilə Qazaxıstan arasında tranzit daşımaları əvvəlki dövrlə müqayisədə 20 faiz artaraq 3,5 milyon tondan çox olub. Orta dəhliz ölkələr arasında davamlı və səmərəli əlaqələrin təmin edilməsində əsas rol oynayır.

2022-ci ildə Aktauda Türkiyə, Azərbaycan və Qazaxıstan ərazilərindən keçən Orta dəhlizin inkişafı və istismarı üzrə "2022-2027-ci illər üçün Yol Xəritəsi" imzalanıb. Sənəd üç ölkənin nəqliyyat-logistika infrastrukturunun sinxron inkişafını, əməliyyatların optimallaşdırılmasını, əlavə yük axınının cəlb edilməsini, vahid tarif siyasətinin həyata keçirilməsini, logistika mərkəzləri şəbəkəsinin inkişafını və digər əsas məsələlərin həllini nəzərdə tutur.

İnfrastruktur sahəsində əhəmiyyətli layihələrdən biri Qazaxıstan ilə Azərbaycan arasında Xəzər dənizinin dibi ilə sualtı fiber-optik kommunikasiya xətlərinin tikintisidir. Tikinti müqaviləsi 2025-ci ilin martında Bakıda imzalanıb və işlərin tamamlanması 2026-cı ilin sonuna planlaşdırılır ki, bu da rəqəmsal inteqrasiyanı gücləndirəcək.

Neft-qaz sektorunda SOCAR və "KazMunayQaz" Milli Şirkəti arasında Aktau-Ceyhan marşrutu üzrə ildə 1,5 milyon ton Qazaxıstan neftinin tranziti ilə bağlı baş saziş imzalanıb. 2024-cü ildə tranzit həcmlərinin mərhələli şəkildə artırılması və tariflərin aşağı salınması haqqında saziş imzalanıb.

Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün infrastrukturun modernləşdirilməsi, qatarların və s. yenilənməsi üzrə həyata keçirilən tədbirlər Orta dəhlizin Avropa ilə Asiya arasında əsas tranzit marşrutu kimi mövqeyinin möhkəmlənməsinə imkan verəcək.

Gəmiqayırma sahəsində tərəfdaşlıq da sənaye əməkdaşlığının mühüm istiqamətidir.

"Yaşıl energetika"nın inkişafı ikitərəfli gündəlikdə mühüm yer tutur. 2024-cü ildə Azərbaycan, Qazaxıstan və Özbəkistan enerji sistemlərinin birləşdirilməsinə və bərpaolunan enerji mənbələrinin təşviqinə yönəlmiş bir sıra strateji sazişlər və memorandumlar imzalayıb. Bu təşəbbüslər ölkələrin davamlı inkişafa və ekoloji cəhətdən təmiz texnologiyalara keçidə birgə sadiqliyini əks etdirir.

*- Azərbaycan ilə Qazaxıstan arasında əlaqələrin möhkəmlənməsində Türk Dövlətləri Təşkilatının rolunu necə qiymətləndirirsiniz?*

- Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan ilə Qazaxıstan arasında qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində aparıcı rola malikdir, siyasi dialoqun dərinləşdirilməsi, iqtisadi əlaqələrin genişləndirilməsi və humanitar əməkdaşlığın inkişafı üçün hərəkətverici platforma rolunu oynayır.

2009-cu ildə qədim Azərbaycan torpağı Naxçıvanda yaradılan Türk Dövlətləri Təşkilatı türk xalqları və ölkələri arasında əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə mühüm töhfələr verib. Keçən il Şuşada ilk qeyri-rəsmi Zirvə Görüşü, bu yaxınlarda isə Qəbələdə TDT Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşü keçirilib. Bu yüksəksəviyyəli görüşlərdə ölkələrimiz arasında təşkilat çərçivəsində əməkdaşlığın əsas məsələləri səmərəli şəkildə müzakirə edilib, Türk Dövlətləri Təşkilatının möhkəmlənməsinə, türk dünyasının daha sıx birliyinə, onun siyasi, iqtisadi və hərbi gücünün artırılmasına, qlobal arenada güc mərkəzinə çevrilməsinə töhfə verən bəyannamələr imzalanıb.

TDT çərçivəsində ölkələrimiz arasında mədəniyyət, humanitar və təhsil sahələrində əməkdaşlıq sistemli və ardıcıl xarakter daşıyır. Birgə təşəbbüslər festivalların, sərgilərin, ədəbi gecələrin və konfransların təşkilindən tutmuş elm və təhsil müəssisələri arasında fəal əməkdaşlığa qədər geniş istiqamətləri əhatə edir.

Türk Dövlətləri Təşkilatı çərçivəsində tədqiqatların aparılmasında, elm və təhsil əlaqələrinin möhkəmləndirilməsində mühüm rol oynayan Beynəlxalq Türk Akademiyası uğurla fəaliyyət göstərir. Biz TÜRKSOY, Türk Mədəniyyəti və İrsi Fondu, Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx əməkdaşlıq edirik. Bu, Azərbaycan ilə Qazaxıstan arasında etimadın yüksək səviyyəsinin daha bir göstəricisidir.

1926-cı ildə Bakıda keçirilmiş Birinci Türkoloji Qurultayın tarixi əhəmiyyətini ayrıca qeyd etmək istərdim. Bu hadisə türk elminin, mədəniyyətinin, birliyinin inkişafında mühüm mərhələ oldu. Gələn il bu əlamətdar forumun keçirilməsinin 100 illiyi tamam olur və Birinci Türkoloji Qurultayın ildönümünün TDT çərçivəsində təntənəli şəkildə qeyd edilməsi planlaşdırılır.

*- Ölkələrimiz mədəni-humanitar sahədə nə dərəcədə sıx əməkdaşlıq edir?*

- Əvvəl dediyim kimi, xalqlarımızı çoxəsrlik tarix, mədəniyyət, din, ortaq dəyərlər birləşdirir. Mədəni əlaqələrin inkişafı xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında, qardaşlıq əlaqələrinin möhkəmlənməsində mühüm rol oynayır.

2023-cü ildə Azərbaycanda Qazaxıstan, 2024-cü ildə isə Qazaxıstanda Azərbaycan Mədəniyyəti Günləri keçirilib. Belə tədbirlər xalqlarımız arasında yaradıcılıq əlaqələrinin dinamik inkişafını əks etdirir və iki ölkənin mədəni ənənələrinin qarşılıqlı zənginləşməsinə töhfə verir.

Qazax ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ən görkəmli simalardan biri Kemel Tokayevin "Gecə açılan atəş" adlı povestlər toplusunun Azərbaycan dilində nəşrini məmnunluqla qeyd etmək istərdim.

Həmçinin 2023-cü ildə Bakıda Kemel Tokayevin 100, Mir Cəlal Paşayevin 115 illik yubileylərinə həsr olunmuş beynəlxalq konfrans keçirilib.

*- Xəzər dənizinin dayazlaşması problemi getdikcə daha çox aktuallaşır. Azərbaycan və Qazaxıstan bu məsələdə öz fəaliyyətlərini necə əlaqələndirir?*

- Təəssüf ki, bu gün Xəzər dənizi bir sıra ciddi ekoloji problemlərlə üz-üzədir. Ən aktual məsələlərdən biri dayazlaşma - həm ekoloji, həm də iqtisadi təhlükələr yaradan suyun səviyyəsinin sürətlə azalmasıdır. 2022-ci ildə keçirilən VI Xəzər Zirvə Görüşündə mən Xəzər dənizində ekoloji tarazlığın pozulması məsələsini qaldırdım. Təəssüf ki, o vaxtdan bəri vəziyyət ancaq pisləşib. Xəzərdə suyun səviyyəsi sürətlə aşağı düşür və bunun səbəbləri təkcə iqlim dəyişikliyi ilə bağlı deyil.

Yaranmış şəraitdə bütün Xəzəryanı ölkələr arasında sıx əməkdaşlıq qurmaq, fəal elmi informasiya mübadiləsi aparmaq və nəticələrin yumşaldılması üçün əlaqələndirilmiş tədbirlər işləyib hazırlamaq çox vacibdir.

Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi və bununla bağlı ekoloji dəyişikliklər biomüxtəlifliyi və ekosistemin dayanıqlılığını təhdid edir ki, bu, təbiətin mühafizəsi və ekoloji tarazlığın bərpası üçün əlaqələndirilmiş tədbirlərin görülməsi zərurəti yaradır.

Bundan başqa, Azərbaycan, Qazaxıstan və digər Xəzəryanı ölkələr regional və beynəlxalq platformalarda Xəzərin mühafizəsi təşəbbüslərini fəal şəkildə irəli sürə bilərlər və bunu etməlidirlər. Artan transmilli ekoloji risklər şəraitində Xəzər dənizi, sadəcə, su hövzəsi deyil, bizim ortaq məsuliyyətimizin və birgə fəaliyyətimizin zəruriliyinin rəmzinə çevrilir.

# Vaşinqtonda imzalanmış sənədlər regionun inkişafı üçün geniş imkanlar yaradıb

## Prezident İlham Əliyev ABŞ Mərkəzi Komandanlığının komandanını qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ Mərkəzi Komandanlığının komandanı və Hərbi Dəniz Qüvvələrinin admiralı Bred Kuperi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, qonaq Vaşinqtonda ABŞ Prezidentinin şahidliyi ilə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılmasına dair əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı bu məsələdə Prezident Donald Trampın xüsusi rolunu qeyd etdi. Vaşinqtonda imzalanmış sənədlərin regionun inkişafı üçün geniş imkanlar yaratdığını vurğulayan Prezident İlham Əliyev Azərbaycanla Ermənistanın artıq sülh şəraitində yaşamağa uyğunlaşdıqlarını dedi.

Söhbət zamanı son dövrlərdə Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin inkişafı məmnunluqla qeyd edildi, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Azərbaycan Respublikasında statistika sahəsində çalışan işçilərin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında statistika işinin təşkilində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə**

Məmmədov Vahab Feyruz oğlu

**"Tərəqqi" medalı ilə**

Bağırov Hüseyn Fərəməz oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Aşurov Abdulkərim Şafi oğlu
Babayev Nazim Kazım oğlu
Əcəlov Toğrul Rafiq oğlu
Əliyev Rauf Ağaxan oğlu
Qafarov Heydər Zülməkan oğlu
Qəhrəmanov Əyyub Məcid oğlu
Quliyeva Səbinə Əliqulu qızı
Tahirov Fərnad Tahir oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 oktyabr 2025-ci il*

# Azərbaycanın müdafiə naziri Özbəkistanda səfərdədir



**Oktyabrın 20-də Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov Özbəkistanın müdafiə naziri general-leytenant Şuhrat Xalmuxamedovun dəvəti ilə "Birlik-2025" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak etmək üçün Səmərqəndə səfər edib.**

Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən xəbərə görə, Səmərqənd şəhərində general-polkovnik Z.Həsənov özbəkistanlı həmkarı ilə görüşüb.

Tərəflər hərbi, hərbi-texniki, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə edib, qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin keçirilməsinin əhəmiyyətini vurğulayıblar.

Azərbaycanın Özbəkistandakı fövqəladə və səlahiyyətli səfiri Hüseyn Quliyevin də iştirak etdiyi görüşdə ölkələrimiz arasında mövcud hərbi əməkdaşlıq səviyyəsi yüksək qiymətləndirilib, həmçinin bu əməkdaşlığın genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin cari vəziyyəti müzakirə olunub

**Oktyabrın 20-də Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Xələf Xələfov İran İslam Respublikasına səfər edərək, bu ölkənin xarici işlər naziri Seyid Abbas Əraği, İran Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayi və xarici işlər nazirinin müavini Kazem Qəribabadi ilə görüşlər keçirib.**

AZƏRTAC xəbər verir ki, görüşlərdə Azərbaycan ilə İran arasında ikitərəfli münasibətlərin cari vəziyyəti, xüsusilə İran Prezidentinin ölkəmizə səfərləri və bu səfərlər çərçivəsində Prezident İlham Əliyev və Prezident Məsud Pezeşkian arasında əldə olunmuş mühüm razılaşmalar əsasında münasibətlərdə yaranmış yeni mərhələyə uyğun olaraq iki ölkə arasında dost və mehriban qonşuluq əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər regionda təhlükəsizlik və sabitliyin möhkəmləndirilməsi, habelə dərin tarixi, dini və mədəni bağlara əsaslanan əməkdaşlığın genişləndirilməsinə yönələn dialoqun davam etdirilməsinin mühüm əhəmiyyətini qeyd ediblər.

Müzakirələrdə həmçinin iki ölkə arasında həyata keçirilən enerji, nəqliyyat, infrastruktur və logistika layihələrinin icrası vəziyyəti, Xəzər dənizində əməkdaşlıq məsələləri, habelə regionda maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Bununla yanaşı, tərəflər Azərbaycanın hazırda Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə (AQEM) sədrliyinin gündəliyindən irəli gələn məsələləri nəzərdən keçiriblər.

# *Qazaxıstanlı deputat:* "Prezident İlham Əliyevin səfəri Qazaxıstan-Azərbaycan əməkdaşlığına güclü təkan verəcək"

**"İki dost ölkənin liderlərinin - Kasım-Jomart Tokayev və İlham Əliyevin səyləri sayəsində Qazaxıstan və Azərbaycan arasında ikitərəfli münasibətlər dinamik şəkildə inkişaf edir. Bu il qarşılıqlı ticarət dövriyyəsi 547 milyon ABŞ dollarına çatıb ki, bu da 2-3 il əvvəllə müqayisədə 2,5 dəfə çoxdur. Nizamnamə kapitalı 300 milyon ABŞ dolları olan Birgə İnvestisiya Fondu yaradılıb".**

Bu barədə AZƏRTAC-a Qazaxıstan Respublikası Parlamenti Məclisinin (aşağı palata) deputatı Erlan Sairov məlumat verib.

Agentliyin həmsöhbəti bildirib ki, Astana Azərbaycan Respublikasının Qarabağ bölgəsinin bərpasına dəstək göstərir. O xatırladıb ki, Qazaxıstan Füzuli şəhərində Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzi inşa edib.

"İki ölkə arasında ticarət dövriyyəsi artmaqda davam edir, humanitar əməkdaşlıq da



genişlənir. Buna görə də Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana səfəri dövlətlərimiz arasında sosial-iqtisadi əməkdaşlığın daha da inkişafı baxımından böyük əhəmiyyət daşıyır. Əminik ki, bu səfər sənaye kooperasiyasının inkişafına, birgə infrastruktur layihələrinin reallaşdırılmasına və Avropa ilə Asiyanı Azərbaycan üzərindən birləşdirən nəqliyyat dəhlizinin təşviqinə güclü təkan verəcək. Qazaxıstan ictimaiyyəti bu səfəri səmimiyyətlə qarşılayır. Əminik ki, birgə inkişaf və ortaq gələcək üçün ölkələrimizin böyük potensialı mövcuddur", - deyə parlament üzvü vurğulayıb.

# Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisi açılıb

## Birinci vitse-prezident Mehriban Əliyeva tədbirdə iştirak edib

**Oktyabrın 17-də Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Vatikanın dövlət katibi kardinal Pietro Parolin tədbirdə iştirak ediblər.**



Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfiri İlqar Muxtarov səfirliyin inzibati ofisi barədə məlumat verib. Bildirilib ki, səfirliyin inzibati ofisi Müqəddəs Pyotr Bazilikasına aparan əsas küçə olan Via Conciliazionedə, Vatikanın Apostol Sarayına çox yaxın bir ərazidə yerləşir. Burada Vatikana məxsus rəsmi qurumlar, eləcə də Müqəddəs Taxt-Tacda akkreditə olunmuş bir neçə səfirliyin inzibati ofisləri də yerləşir.









Diqqətə çatdırılıb ki, Azərbaycan Respublikası ilə Müqəddəs Taxt-Tac arasındakı münasibətlər son illərdə qarşılıqlı maraqlar, hörmət və səmərəli əməkdaşlıq ruhunda yüksələn xətlə inkişaf edir, bu işbirliyi getdikcə daha da dərinləşir və şaxələndirilir.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva və Vatikanın dövlət katibi kardinal Pietro Parolin çay süfrəsi arxasında ikitərəfli münasibətlərə və beynəlxalq gündəliyə aid məsələlər, qarşılıqlı maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

Müqəddəs Taxt-Tacın dünyada bir milyarddan çox katolik üçün mənəvi və ideoloji mərkəz olduğunu nəzərə alsaq, Azərbaycanın buradakı diplomatik nümayəndəliyinin fəaliyyəti ölkəmizin həqiqətlərinin dünya birliyinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, 2021-ci ildə Prezident İlham Əliyev Azərbaycanın Müqəddəs Taxt-Tac yanında səfirliyinin rəsmi təsis edilməsi haqqında qanunu imzalayıb. 2022-ci ildə İlqar Muxtarov ölkəmizin Müqəddəs Taxt-Tacda ilk rezident səfiri təyin olunub.

# *İtaliyadan baxış:* Azərbaycanın Birinci vitse-prezidentinin Vatikan səfəri sülh, hörmət və mənəvi vəhdət mesajıdır

**"Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana rəsmi səfəri sivilizasiyalararası humanitar və mədəni dialoqun inkişafında mühüm mərhələdir. Bu səfər Azərbaycanın Şərq və Qərb, islam və xristian dünyaları arasında körpü rolu oynadığını bir daha təsdiqləyir. Çoxəsrlik dinlərarası və mədəniyyətlərarası birgəyaşayış ənənələrinə malik Azərbaycan dövləti tolerantlıq, qarşılıqlı hörmət və mədəni irsin qorunması kimi dəyərlərə sadiqliyini növbəti dəfə nümayiş etdirib".**

Bunu AZƏRTAC-a beynəlxalq münasibətlər üzrə italiyalı jurnalist və ekspert Domeniko Letitsiya söyləyib.

O bildirib ki, Heydər Əliyev Fondunun Romadakı Kommodilla katakombalarının bərpası, eləcə də Vatikanın əlyazmalarının və mədəni abidələrinin qorunmasına yönəlmiş fəaliyyəti humanitar diplomatiyanın xalqlar arasında qarşılıqlı anlaşmanın möhkəmlənməsinə necə xidmət edə biləcəyinin bariz nümunəsidir.

"Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əməkdaşlıq göstərir ki, mədəni diplomatiya sülh alətinə çevrilə bilər. Bu, sadəcə, rəmzi jest deyil, dinlər və mədəniyyətlərarası dialoqun tez-tez kövrək olduğu dünyada etimad və həmrəyliyin möhkəmləndirilməsinə konkret töhfədir", - deyə ekspert vurğulayıb.

Domeniko Letitsiya, həmçinin qeyd edib ki, Mehriban Əliyevanın Vatikan səfəri təkcə ikitərəfli münasibətlər baxımından deyil, bütövlükdə beynəlxalq ictimaiyyət üçün də əhəmiyyət daşıyır. "Azərbaycan özünü təkcə Avropanın enerji və iqtisadi tərəfdaşı kimi deyil, həm də bəşəriyyətin ortaq irsinin qorunması üzrə mədəni və humanitar layihələrin təşəbbüskarı kimi göstərir. Bu amil ölkəni qlobal sivilizasiyalar dialoqunun mühüm iştirakçısına çevirir. Azərbaycanın Birinci vitse-prezidentinin Vatikan səfəri sülh, hörmət və mənəvi birliyin mesajıdır və beynəlxalq arenada yüksək qiymətə layiqdir", - deyə D.Letitsiya əlavə edib.

# TÜRKPA Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında təmsil olunur

**TÜRKPA-nın baş katibi səfir Ramil Həsənin rəhbərlik etdiyi nümayəndə heyəti İsveçrənin Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyasında və əlaqədar iclaslarda müşahidəçi qismində iştirak edir.**

Təşkilatdan AZƏRTAC-a bildiriblər ki, İdarəetmə Şurasının sessiyasında iştirak edən TÜRKPA-nın nümayəndə heyəti daha sonra "Böhranlar zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda assambleyanın ümumi debatına qatılacaq.

Assambleya PAİ-nin vitse-prezidenti xanım Qabriyela Moravska-Stanetska və PAİ-nin baş katibi Martin Çunqonqun açılış nitqləri ilə işə başlayıb.

Tədbir çərçivəsində baş katib səfir Ramil Həsən PAİ-nin baş katibi Martin Çunqonq və digər beynəlxalq təşkilatların rəhbərləri ilə ikitərəfli görüşlər keçirəcək. Onun assambleyada çıxışı da gözlənilir.

Assambleya çərçivəsində Ramil Həsən Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşüb. Görüşdə o, TÜRKPA-nın fəaliyyəti haqqında qısa məlumat verib və Özbəkistanın TÜRKPA-ya tamhüquqlu üzvlüyünün perspektivlərinə dair müzakirələrin başlanmasının vacibliyini qeyd edib.

Tənzilə Narbayeva Özbəkistanın bu məsələdə fəal iştirakını vurğulayıb və ölkənin tezliklə üzvlüklə bağlı prosedurlara başlamaq niyyətini ifadə edib. Söhbət zamanı əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə Özbəkistana rəsmi səfərin təşkili də razılaşdırılıb.

# Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrə Konfederasiyasına işgüzar səfər edib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyasında iştirak etmək üçün İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə səfərə gedib.**



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Cenevrənin Beynəlxalq Hava Limanında Milli Məclisin Sədrini Azərbaycanın İsveçrədəki səfiri Fuad İsgəndərov, ölkəmizin BMT-nin Cenevrə bölməsindəki daimi nümayəndəsi Qalib İsrafilov və digər rəsmi şəxslər qarşılayıblar.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova PAİ-nin baş katibi ilə görüşüb



**İsveçrə Konfederasiyasının Cenevrə şəhərinə işgüzar səfər edən Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyası çərçivəsində təşkilatın baş katibi Martin Çunqonq ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan Respublikası Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında mövcud və gələcək əməkdaşlıq məsələləri müzakirə edilib. Tərəflər bundan əvvəlki görüşləri məmnunluqla xatırlayaraq, bu kimi təmasların təşkilat və ölkələrimiz arasında əlaqələrin inkişafına mühüm töhfə verdiyini qeyd ediblər.

Söhbət zamanı bu kimi tədbirlərin mühüm beynəlxalq məsələlərin müzakirəsi baxımından vacib və əlverişli platforma olduğu qeyd edilib, PAİ-nin təşkilata üzv dövlətlər arasında əməkdaşlığın dərinləşdirilməsindəki mühüm rolu vurğulanıb.

Görüşdə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti də təqdir olunaraq, Azərbaycan Milli Məclisinin sədrliyi ilə təşkilatın institusional inkişafı və beynəlxalq nüfuzunun artması istiqamətində əldə olunan nailiyyətlər yüksək qiymətləndirilib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Cenevrədə Namibiya və Bosniya və Herseqovinanın parlament sədrləri ilə görüşüb





**Milli Məclisin Sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 151-ci Assambleyası çərçivəsində Namibiya Milli Assambleyasının Sədri Saara Kuugongelva və Bosniya və Herseqovina Parlament Assambleyası Nümayəndələr Palatasının Sədri Denis Zvizdic ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşlərdə belə mühüm beynəlxalq tədbirlərin bir sıra qlobal problemlərin müzakirəsi və effektiv həlli yolları ilə bağlı təkliflərin irəli sürülməsi, həmçinin ikitərəfli əlaqələrin nəzərdən keçirilməsi üçün yaxşı platforma olduğu qeyd edilib.

Söhbətlər zamanı beynəlxalq parlament təşkilatlarında əməkdaşlığın əhəmiyyəti qeyd olunub. Xüsusilə Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin fəaliyyəti yüksək qiymətləndirilərək, təşkilatın institusional inkişafı və beynəlxalq nüfuzunun artırılması istiqamətində görülən işlər qeyd olunub.

Görüşlərdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Cenevrədə Asiya Parlament Assambleyasının Koordinasiya görüşünə sədrlik edib

**Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyasında iştirak etmək məqsədilə İsveçrə Konfederasiyasının Cenevrə şəhərində işgüzar səfər edən Milli Məclisin Sədri Sahibə Qafarova Asiya Parlament Assambleyasının (APA) Koordinasiya görüşünə sədrlik edib.**




Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda çıxışı zamanı spiker Sahibə Qafarova bu görüşlərin qarşılıqlı maraq doğuran əsas beynəlxalq məsələlər üzrə əməkdaşlığın və koordinasiyanın genişləndirilməsində mühüm rolunu vurğulayıb. Onun sözlərinə görə, əlaqələndirici görüşlər, xüsusilə belə həssas vaxtlarda vacib əhəmiyyət kəsb edən mühüm beynəlxalq məsələlərin müzakirəsi və fikir mübadiləsinin aparılmasında APA-nın əhəmiyyətli potensialından tam istifadə etmək üçün əla imkan yaradır. Gələn il Asiya Parlament Assambleyasının yaradılmasının 20-ci ildönümünün qeyd olunacağını söyləyən Milli Məclisin Sədri, ötən dövrdə assambleyanın artıq mühüm parlamentlərarası əməkdaşlıq, konstruktiv dialoq və həmrəylik platformasına çevrildiyini bildirib. Onun sözlərinə görə, bu qurum üzv ölkələrin parlamentlərini öz çətiri altında birləşdirir, onların səsini eşitdirir və ölkələrimizin ümumi məqsədlərə nail olmaq səylərinə parlament töhfəsini verir.

Azərbaycanın təşkilata sədrlik etməyə başladığı 2024-cü ildən bəri görülən işlər haqqında məlumat verən Sahibə Qafarova bildirib ki, bu müddət ərzində assambleya çərçivəsində əməkdaşlıq və dialoqun genişləndirilməsi istiqamətində səylər göstərilib. Azərbaycan birgə işin daha da gücləndirilməsi - APA-nın institusional potensialının inkişafı, sıralarının genişləndirilməsi, mövcud orqanların səmərəliliyinin artırılması ilə bağlı bir sıra prioritetlər irəli sürüb. Sözügedən dövrdə təşkilatın sıraları genişlənib. Belə ki, Oman Sultanlığının Şura Məclisi APA-nın tamhüquqlu üzvü olub, Belarus Respublikası Milli Assambleyasının Respublika Şurası müşahidəçi statusu qazanıb, APA-da müşahidəçi statusu olan beynəlxalq təşkilatların da sayı artırılıb, Ərəb Parlamentləri Baş Katibləri Assosiasiyasına müşahidəçi statusu verilib.

Qeyd olunub ki, Azərbaycanın sədrliyi dövründə APA büdcəsinin formalaşdırılması qərarı ilə bağlı konsensus əldə olunub ki, bu da assambleyanın imkanlarının daha da gücləndirilməsi və artırılması üçün çox vacibdir.

Milli Məclisin Sədri çıxışında həmçinin deyib ki, dünyamızın üzləşdiyi problemlərin miqyası kollektiv tədbirlər və birgə səylər olmadan onların öhdəsindən gəlməyin qeyri-mümkün olduğunu göstərir. Qəzzada atəşkəslə bağlı əldə olunan razılaşma bunu bir daha nümayiş etdirdi. O, ümidvar olduğunu bildirib ki, sazişin bütün mərhələləri layiqincə yerinə yetiriləcək və Yaxın Şərq Sülh Sammitinin nəticələri regiona ədalətli və davamlı sülh gətirəcək.

Spiker Sahibə Qafarova xatırladıb ki, gələn il Bəhreyn Krallığı APA-ya sədrlik edəcək. O, inamını ifadə edib ki, Bəhreynin rəhbərliyi altında assambleya bütün Asiyada parlamentlərarası əməkdaşlığı gücləndirməyə davam edəcək və ümumi məqsədlərə uyğun olaraq qitəmizdə sülhün, həmrəyliyin və davamlı inkişafın təşviqinə töhfə verəcək.

Sonra iclas gündəlikdə duran məsələlərin müzakirəsi ilə davam edib.

*"Azərbaycan"*

# Milli Məclisin Sədri Sahibə Qafarova Parlamentlərarası İttifaqın 151-ci Assambleyasında çıxış edib

**Milli Məclisin Sədri Sahibə Qafarova oktyabrın 20-də İsveçrənin Cenevrə şəhərində Parlamentlərarası İttifaqın (PAİ) 151-ci Assambleyasında keçirilən "Böhran zamanı humanitar normaların qorunması və humanitar fəaliyyətin dəstəklənməsi" mövzusunda müzakirələrdə çıxış edib.**






Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, çıxışında bu gün dünyada münaqişələrin və təbii fəlakətlərin sayının artmaqda davam etdiyini söyləyən spiker Sahibə Qafarova bunun özü ilə yeni humanitar çağırışlar - zorakılıq, köçkünlük, böhranlar və aclıq gətirdiyini bildirib. Birləşmiş Millətlər Təşkilatının Baş katibinin bu yaxınlarda qlobal humanitar fəaliyyətin iflasa uğramaq ərəfəsində olması ilə bağlı xəbərdarlıq etdiyini xatırladan Milli Məclisin Sədrinin sözlərinə görə, bu, vəziyyətin nə qədər ciddi olduğunu və birgə tədbirlərə nə qədər böyük ehtiyac duyulduğunu açıq şəkildə göstərir.

Tədbir iştirakçılarına bu ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistanın Birgə Bəyannamə imzalaması haqqında məlumat verən spiker Sahibə Qafarova deyib ki, tərəflər sülh sazişini də parafladılar ki, bu da onilliklərlə davam edən Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması istiqamətində tarixi addımdır. Milli Məclisin Sədri ümidvar olduğunu bildirib ki, bu əlamətdar hadisə Cənubi Qafqazda daimi sülh, sabitlik və davamlı inkişafın yeni səhifəsini açacaq. Bu isə, hətta uzun müddətdir davam edən münaqişələrin də dialoq və siyasi iradə yolu ilə həll oluna biləcəyinə dair əminlik yaradır.

Spiker Sahibə Qafarova müzakirə iştirakçılarının diqqətinə çatdırıb ki, Azərbaycan xalqı humanitar böhranın nə demək olduğunu öz təcrübəsində yaşayıb. Onun sözlərinə görə, hələ 1990-cı illərin əvvəllərində Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilib. O dövrdə 8 milyonluq xalq üçün bu, böyük faciə idi. Davamlı milli səylər və beynəlxalq tərəfdaşların dəstəyi ilə Azərbaycan köçkün əhalisinin təcili ehtiyaclarını ödəyə bildi. 2020-ci ildə ölkəmiz öz ərazi bütövlüyünü bərpa etdikdən sonra işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı yenidənqurma və reabilitasiya layihələrinin icrasına başlayıb. Milli Məclisin Sədri deyib ki, artıq qayıdış prosesi başlayıb və bu gün əlli mindən çox insan yenidən orada yaşayır, işləyir və oxuyur. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin güclü siyasi iradəsinin və humanitar fəaliyyətə sadiqliyinin sübutudur.

Bununla belə Sahibə Qafarova hələ də bəzi ciddi problemlərin qaldığını söyləyib. O, bu sırada ən aktual məsələlərdən biri kimi insanların həyatını təhdid etməyə və yenidənqurma işlərinə maneə törədən ərazilərimizin minalarla çirklənməsini göstərib. Spiker diqqətə çatdırıb ki, işğal illərində Ermənistan tərəfindən Azərbaycanın əvvəllər işğal altında olmuş ərazilərində çoxlu sayda minalar yerləşdirilib. Vurğulanıb ki, 2020-ci ildən indiyədək minalardan 400-dən çox azərbaycanlı həlak olub və ya yaralanıb. Bu minalar və müharibə qalıqları həm də ətraf mühitə ciddi ziyan vurur - torpağı və suyu çirkləndirir, biomüxtəlifliyi məhv edir və münbit torpaqların becərilməsinin qarşısını alır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, ölkəmiz üçün humanitar minatəmizləmə təkcə təhlükəsizlik tədbiri deyil, həm də ətraf mühitin bərpası aktıdır.

Çıxışında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən yenidənqurma və bərpa işləri zamanı davamlı inkişaf və "yaşıl prinsiplər"in inkişafın hər bir mərhələsinə inteqrasiya etdiyini vurğulayan spikerin bildirdiyinə görə, həmin ərazilərdə bərpanın ətraf mühitin yenilənməsi ilə paralel getməsini təmin etmək üçün yeni "ağıllı kənd"lər və "yaşıl enerji zonaları" yaradılır. O deyib ki, humanitar bərpa və ekoloji tarazlıq birlikdə inkişaf etməlidir.

Milli Məclisin Sədri assambleyada daha bir humanitar çağırış kimi itkin düşmüş şəxslərin taleyi ilə bağlı məsələyə də diqqət çəkib. O vurğulayıb ki, münaqişə illərində 4000-ə yaxın azərbaycanlı itkin düşüb və onların ailələri hələ də cavab gözləyir. Bu, təkcə milli ağrı deyil, həm də bir çox ölkələrin paylaşdığı universal humanitar narahatlıqdır.

Spiker bir daha diqqətə çatdırıb ki, Azərbaycan bu çağırışla mübarizəni dəstəkləmək məqsədi ilə humanitar minatəmizləməni özünün 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi qəbul edib və digər ölkələri də oxşar yanaşmanı nümayiş etdirməyə dəvət edir. Bundan başqa, Azərbaycan humanitar minatəmizləmə üzrə beynəlxalq konfranslar təşkil edir və ideyaların və qabaqcıl təcrübələrin mübadiləsi üçün dəyərli platforma təmin edən "İtkin düşmüş şəxslərlə bağlı Bakı Dialoqu"nu təsis edib.

Çıxışının sonunda Milli Məclisin Sədri deyib ki, vaxtilə humanitar yardım alan Azərbaycan bu gün donor ölkə kimi çıxış edir, BMT-ni və qlobal humanitar səyləri dəstəkləyir. COVID-19 pandemiyası zamanı Azərbaycan 80-dən çox ölkəyə yardım göstərib və son beş ildə 140-dan çox ölkəyə 350 milyon ABŞ dollarından çox humanitar, maliyyə və texniki yardım çatdırıb. Bu səylər vasitəsilə Azərbaycan göstərir ki, sülh, humanitar fəaliyyət və ekoloji davamlılıq ayrılmazdır. Yalnız həmrəylik və ortaq məsuliyyət sayəsində biz hamı üçün daha təhlükəsiz, daha "yaşıl" və daha humanist gələcək qura bilərik.

*"Azərbaycan"*

# Mədəniyyət diplomatiyası

## İtaliya mətbuatı Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfərini geniş işıqlandırıb





**İtaliyanın aparıcı media resursları Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfərini diqqət mərkəzində saxlayıb.**

AZƏRTAC xəbər verir ki, "Giornale Diplomatico","Notizie Geopolitiche","il Domani d`Italia", "Gazzetta Diplomatica","Kmetro0", "il Denaro", "Radio Studio90 Italia","Tele Citta", "MSN" və "ZaZoom" kimi saytların və xəbər portallarının yaydığı materiallarda Birinci vitse-prezident Mehriban Əliyevanın səfər çərçivəsində müxtəlif mühüm görüşlər keçirdiyi və tədbirlərdə iştirak etdiyi bildirilir.

Diqqətə çatdırılır ki, Azərbaycanın Birinci vitse-prezidentinin Roma Papası XIV Leo ilə görüşündə ölkəmizlə Vatikan arasında ikitərəfli əlaqələrin xeyli inkişaf etdiyi vurğulanıb. Görüşdə Müqəddəs Taxt-Tacın Azərbaycandakı Katolik Kilsəsinin fəaliyyəti və ikinci Katolik Kilsəsinin tikintisi ilə əlaqədar aparılan hazırlıq işləri barədə məlumat verilib. XIV Leo Azərbaycan ilə qurulan bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa böyük təkan verdiyini deyib.

Birinci vitse-prezident Mehriban Əliyeva ilə Vatikanın Dövlət katibi kardinal Pietro Parolinin görüşündə isə ikitərəfli münasibətlərin müsbət inkişafından məmnunluq ifadə olunub. Pietro Parolin Bakıda ikinci Katolik Kilsəsinin tikintisini təqdirəlayiq hal kimi qiymətləndirib, bunun Azərbaycanda bütün dinlərə göstərilən qayğı və hörmətin təzahürü olduğunu vurğulayıb. Vatikanın Dövlət katibi Ermənistanla Azərbaycan arasında sülh sazişinin paraflanması münasibətilə ölkəmizi təbrik edib, Vatikanın regionda sülhün bərqərar olmasını birmənalı şəkildə dəstəklədiyini deyib.

Yazılarda məlumat verilir ki, səfər çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti və ailə üzvləri Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib, həyata keçirilmiş bərpa işləri ilə tanış olublar. Katakombaların bərpası layihəsinin Vatikan ilə Azərbaycan arasında çoxillik əməkdaşlığın yeni mərhələsi olduğu qeyd edilir.



Birinci vitse-prezident Mehriban Əliyevanın həmçinin Müqəddəs Pavel bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşdüyü, bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə tanış olduğu diqqətə çatdırılır. Azərbaycanın Birinci vitse-prezidentinin Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə tanış olduğu, Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşdüyü və birlikdə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak etdikləri bildirilir.

Bundan başqa, Birinci vitse-prezident Mehriban Əliyevanın Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olduğu, Vatikan Apostol Kitabxanası və Apostol Arxivinə baş çəkdiyi, Vatikanın Dövlət katibi kardinal Pietro Parolinlə birgə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışında iştirak etdiyi vurğulanır.

## Roma katakombalarından beynəlxalq dialoqa - Azərbaycanın mədəni missiyası



**"XXI əsrdə qlobal siyasətin qarşısında duran əsas çağırışlardan biri dini, mədəni və etnik ziddiyyətlərin qarşısının alınması, bəşəri dəyərlərin qorunmasıdır. Bu kontekstdə Azərbaycan özünün çoxəsrlik tolerantlıq ənənələrini müasir beynəlxalq münasibətlər müstəvisinə daşıyaraq multikulturalizmi dövlət siyasətinin ayrılmaz hissəsinə çevirib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana rəsmi səfəri bu siyasətin ən parlaq və məzmunlu təzahürlərindən biri oldu. Bu səfəri yalnız diplomatik hadisə kimi deyil, həm də Azərbaycanın mədəniyyətlərarası dialoq sahəsində qlobal mövqeyinin təsdiqi kimi dəyərləndirmək lazımdır".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Media Təhlil Mərkəzinin Analitik qrupunun "Roma katakombalarından beynəlxalq dialoqa - Azərbaycanın mədəni missiyası" sərlövhəli məqaləsində yer alıb.

Qeyd olunub ki, Birinci vitse-prezident Mehriban Əliyeva 2025-ci ilin oktyabrında Vatikanda bir sıra yüksəksəviyyəli görüşlər keçirdi. O, Vatikanın Dövlət katibi Kardinal Pietro Parolin, Kardinal Ceyms Harvi, Vatikan Şəhər Dövlətinin Qubernatoru Rahfaella Petrini və digər rəsmi şəxslərlə görüşlər zamanı Azərbaycanın dinlərarası harmoniya modelinin əsas prinsiplərini bölüşdü. Səfər çərçivəsində Vatikan Apostol Kitabxanasında saxlanılan qədim əlyazmaların bərpası və rəqəmsallaşdırılması sahəsində əməkdaşlıq genişləndirildi, Müqəddəs Pavel bazilikasında bərpa layihələrinə baxış keçirildi, Azərbaycanın dəstəyi ilə bərpa olunan Müqəddəs Kommodilla katakombalarının açılışı oldu. Bu, xristian dini irsinin qorunması sahəsində mühüm beynəlxalq hadisə idi. Bundan əlavə, Vatikanla mədəni-humanitar əməkdaşlığı daha da gücləndirmək məqsədilə Azərbaycan səfirliyinin inzibati binasının açılışı da reallaşdı. Ona görə də Mehriban Əliyevanın Vatikana səfəri Azərbaycanın "yumşaq güc" siyasətinin tərkib hissəsidir. Heydər Əliyev Fondu illərdir ki, Vatikanda və digər ölkələrdə bəşəri irsin bərpası istiqamətində mühüm layihələr həyata keçirir. Bu layihələr arasında Roma katakombalarının, qədim kilsələrin və muzey eksponatlarının bərpası xüsusi yer tutur. Bu fəaliyyət Azərbaycanın dini tolerantlıq nümunəsini praktik səviyyədə nümayiş etdirir.

Vatikanda keçirilən görüşlərdə Birinci vitse-prezident Mehriban Əliyeva açıq şəkildə vurğuladı ki, "Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin birgəyaşayış modelini qorumaqla sülhün və qarşılıqlı hörmətin bərqərar olmasına töhfə verir". Bu fikir yalnız diplomatik jest deyil, həm də ölkəmizin ideoloji mövqeyinin ifadəsi idi. Çünki Azərbaycanın multikultural dəyərlərə verdiyi töhfələr təkcə siyasi əlaqələrin deyil, həm də diplomatik münasibətlərin göstəricisi kimi çıxış edir. Bakıda katolik, pravoslav, yəhudi və protestant icmalarının sərbəst fəaliyyət göstərməsi, dini bayramların dövlət səviyyəsində qeyd olunması, müxtəlif din xadimlərinin ortaq tədbirlərdə iştirakı Azərbaycanın sosial və mənəvi sabitliyinin mühüm sütunlarından biridir. Bu siyasətin beynəlxalq miqyasda tanınması da məhz Mehriban Əliyevanın kulturoloji diplomatiya fəaliyyəti ilə əlaqədardır. Onun Vatikandakı görüşlərində Azərbaycanın mədəni irsi ilə humanist dəyərləri arasında körpü qurulması bu siyasətin mahiyyətini daha da dərinləşdirir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Vatikana səfəri beynəlxalq mətbuatda geniş işıqlandırılıb və bu səfər "dinlərarası dialoqun nümunəsi" kimi təqdim edilib. Vatikan rəsmiləri Azərbaycanın dini müxtəlifliyə hörmətini, həmçinin Heydər Əliyev Fondunun dəstəklədiyi layihələrin mədəni irsin qorunmasında oynadığı rolu yüksək qiymətləndiriblər. Bu rezonans göstərir ki, Azərbaycan artıq təkcə enerji və təhlükəsizlik gündəliyi ilə deyil, həm də humanitar və mənəvi dəyərlər diplomatiyası ilə beynəlxalq sistemdə söz sahibidir. Ona görə də Mehriban Əliyevanın Vatikana səfəri Azərbaycanın multikulturalizm fəlsəfəsinin praktik və mənəvi təcəssümü oldu. Bu səfər bir daha sübut etdi ki, Azərbaycan qlobal miqyasda da mədəniyyətlərarası dialoqun, dinlərarası əməkdaşlığın və bəşəri həmrəyliyin daşıyıcısıdır. Dünyanın müxtəlif nöqtələrində ekstremizm, dini ayrı-seçkilik və mədəni qarşıdurmaların dərinləşdiyi bir zamanda Azərbaycan sülh, tolerantlıq və humanizm ideyalarının real daşıyıcısı kimi çıxış edir. Bu isə ölkəmizin beynəlxalq nüfuzunun əsas mənəvi dayağıdır.

## Azərbaycan mədəni və mənəvi kapitalı ilə qlobal miqyasda fərqlənir

**Birinci vitse-prezident Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca rəsmi səfəri çərçivəsində keçirilmiş yüksəksəviyyəli görüşlər və müzakirələr tərəflər arasında etimadın institusional səviyyəyə yüksəldiyini göstərir. Tarixi, milli-mənəvi dəyərlərimiz olan və dövlət siyasətinin ayrılmaz hissəsi kimi sülh, tolerantlıq və multikulturalizm Azərbaycanda daim təbliğ olunur. Birinci vitse-prezidentin səfəri bu siyasətin beynəlxalq səviyyədə təqdimatı idi - katolik dünyasının mərkəzində, Müqəddəs Taxt-Tacla əməkdaşlıq formatında tolerantlığın praktiki təzahürü nümayiş etdirildi.**



Milli Məclisin deputatı Pərvanə Vəliyeva "Azərbaycan" qəzetinə bildirib ki, Birinci vitse-prezidentin multikulturalizm və dini harmoniyanı həm dövlət siyasəti, həm də cəmiyyətin yaşam tərzi kimi vurğulaması ölkədaxili dini konfiqurasiyada balanslı, inklüziv münasibətin praktik ifadəsidir. Mehriban xanım Əliyeva bu səfərin son 14 ildə Vatikana altıncı səfəri olduğunu diqqətə çatdırıb. Səfərin gündəliyi Heydər Əliyev Fondunun illərdir sistemli şəkildə dəstəklədiyi bərpa layihələrinin məntiqi davamı kimi, Azərbaycanın mədəniyyətlərarası körpü və dinlərarası dialoqun fəal tərəfdarı imicini möhkəmləndirdi. "Fondun dəstəyi ilə Kommodilla katakombalarının bərpası, Müqəddəs Pavel və Müqəddəs Pyotr bazilikalarında həyata keçirilən işlər, eləcə də ali kilsə rəhbərləri ilə görüşlər dövlətlərarası mədəni və humanitar münasibətlərin inkişafına xidmət edir. Roma Papası XIV Leo da bu əməkdaşlığın məhz Mehriban Əliyevanın təşəbbüsləri nəticəsində yeni inkişaf mərhələsinə qədəm qoyduğunu vurğulayaraq, Azərbaycanın rolunu yüksək qiymətləndirib. O bildirib ki, Azərbaycan ilə Vatikan arasında münasibətlər son illərdə yüksək etimad və qarşılıqlı hörmətə əsaslanır. Bu əlaqələr ilkin mərhələdə mədəni və dini abidələrin bərpasına yönəlmişdi, lakin bu gün artıq elmi tədqiqatlar, mədəni mübadilələr və təhsil sahəsində birgə layihələrlə genişlənib. Heydər Əliyev Fondunun Vatikanla layihələri - Kommodilla, Sebastian, Marçelino və Pietro katakombalarının bərpası, Müqəddəs Pyotr və Pavel bazilikalarındakı restavrasiya işləri bu hörmətin mədəni diplomatiya dili ilə ifadəsidir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, Birinci vitse-prezidentin səfəri çərçivəsində Azərbaycanın Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin açılışı da mühüm siyasi və simvolik hadisədir. Müqəddəs Taxt-Tac dünyada bir milyarddan çox katolikin mənəvi mərkəzi kimi beynəlxalq ictimai rəyin formalaşmasında əhəmiyyətli təsirə malikdir. Bu baxımdan Azərbaycan səfirliyinin fəaliyyətinin gücləndirilməsi ölkəmizin həqiqətlərinin, sülh təşəbbüslərinin və multikultural dəyərlərinin dünyaya çatdırılması baxımından strateji önəm daşıyır.

P.Vəliyeva vurğulayıb ki, Mehriban Əliyevanın bu səfəri Azərbaycanın beynəlxalq aləmdə sülh, mədəniyyət və mənəvi dəyərlərin qorunmasına yönəlmiş siyasətinin ardıcıl və düşünülmüş şəkildə həyata keçirildiyini nümayiş etdirdi: "Azərbaycan artıq təkcə enerji və nəqliyyat layihələri ilə deyil, həm də mədəni və mənəvi kapitalı ilə qlobal miqyasda fərqlənir. Mədəni irsin qorunması, dini məkanların bərpası, elmi-tədqiqat tərəfdaşlığı bir-birini tamamlayır. Bu sinerji Azərbaycanın mədəni, humanitar, elmi sahədə dayanıqlı nüfuz yaratdığını göstərir".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## *İtaliyalı ekspert:* "Azərbaycanın mədəniyyətlərarası dialoq və humanitar diplomatiyası Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfərində öz əksini tapdı"

**"Vatikanın təntənəli, eyni zamanda mənəviyyatla dolu ab-havasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi səfəri baş tutdu. Bu səfər mədəniyyətlərarası anlaşmanın və humanitar əməkdaşlığın parlaq simvoluna çevrildi".**

Bu barədə AZƏRTAC-a müsahibəsində İtaliyanın Avropa Xəbər Agentliyinin nümayəndəsi Karlo Marino bildirib.

O vurğulayıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri təkcə mərasim xarakteri daşımayıb, həm də dərin humanitar-siyasi məzmun kəsb edib: "Azərbaycanın Birinci vitse-prezidenti rəsmi səfəri çərçivəsində Müqəddəs Taxt-Tacda Roma Papası XIV Leo ilə görüşüb. Həmçinin Vatikanın yüksəkvəzifəli nümayəndələri ilə danışıqlar aparılıb, humanitar böhranlar, münaqişə zonalarında mədəni irsin qorunması, dinlər və mədəniyyətlər arasında dialoqun əhəmiyyəti kimi aktual məsələlər müzakirə olunub. Səfərin əsas diqqət mərkəzində Azərbaycanın ardıcıl şəkildə həyata keçirdiyi "humanitar diplomatiya" konsepsiyası dayanır. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Vatikanın Müqəddəs Kommodilla katakombaları da daxil olmaqla, tarixi və dini abidələrin bərpası üzrə layihələr həyata keçirir".

Karlo Marino vurğulayıb ki, Birinci vitse-prezident Mehriban Əliyevanın səfəri "yumşaq gücün ustad dərsi" olub və Azərbaycanın yalnız enerji tərəfdaşı kimi deyil, həm də qlobal humanitar prosesin məsul iştirakçısı kimi çıxış etmək əzmini nümayiş etdirib. "Bu səfər dərin rəmzi məna daşıyır. Əhalisinin çoxu müsəlman olan, lakin dünyəvi dövlət quruluşuna malik bir ölkə üçün katolik dünyasının mərkəzində ali səviyyəli görüş Azərbaycanın çoxəsrlik dözümlülük və multikulturalizm ənənəsini bir daha ön plana çıxardı. Dialoqun əsas mövzularından biri bəşəriyyətin mədəni irsinin qorunması üzrə qarşılıqlı səylər idi. Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti Vatikanda incəsənət, tarix və mədəniyyəti insan ruhu və yaddaşının daşıyıcısı kimi



qorumağa yönəlmiş fəaliyyətlə səsləşir. Dini və mədəni abidələrin - istər Vatikanın katolik irsi, istərsə də Azərbaycanda islam və xristian məbədlərinin bərpası milli qürur aktı kimi deyil, dünya irsinə qarşı ümumbəşəri məsuliyyətin təzahürü kimi təqdim olunub. Bu ortaq dəyər Azərbaycana sivilizasiyanın qoruyucusu, mənşəyindən asılı olmayaraq müqəddəs və tarixi dəyərlərə hörmətlə yanaşan ölkə kimi mövqe qazandırır. Mədəni irsin getdikcə daha çox dağıntılara məruz qaldığı bir dövrdə bu mövqe böyük mənəvi nüfuza malikdir", - deyə o qeyd edib.

Avropa Xəbər Agentliyinin nümayəndəsi əmindir ki, bu səfər diqqətlə planlaşdırılmış bir addım idi və Azərbaycanın zəngin dözümlülük irsini daxili siyasət elementindən beynəlxalq kimliyin ayrılmaz hissəsinə çevirdi. "Qlobal məkanda, obrazların və simvolların bəzən sözlərdən daha çox mənaya malik olduğu bir şəraitdə Azərbaycanın Birinci vitse-prezidenti Roma Papası ilə dərin məzmunlu dialoq apararaq güclü bir mesaj göndərdi - Qafqazın bu müsəlman ölkəsi körpülər salmağa, yaraları sağaltmağa və birgəyaşayış ideyasını irəlilətməyə çalışır. Beynəlxalq münasibətlərin böyük kətanında bu səfər yeni bir ip - dialoq, hörmət və daha harmonik dünya üçün ümumi ümid ipini əlavə etdi. Beləliklə, Birinci vitse-prezident Mehriban Əliyevanın Vatikana rəsmi səfəri Azərbaycanın humanitar diplomatiyasının inkişafında mühüm bir səhifəyə çevrildi və ölkənin beynəlxalq imicini mədəniyyətlər, dinlər və sivilizasiyalar arasında körpü kimi daha da möhkəmləndirdi", - deyə Karlo Marino vurğulayıb.

# Ümumdünya Statistika Günü ilə bağlı tədbir keçirilib

**Oktyabrın 20-də Dövlət Statistika Komitəsində Ümumdünya Statistika Günü ilə bağlı mətbuat konfransı və statistik olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**





Dövlət Statistika Komitəsinin əməkdaşları əvvəlcə Fəxri xiyabana gələrək müstəqil Azərbaycanın banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini yad edib, məzarı önünə əklil qoyublar. Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb. Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsi yad edilib.

Tədbirdən öncə Ulu Öndər Heydər Əliyevin komitənin foyesində ucaldılan büstü ziyarət olunub, önünə gül dəstələri düzülüb.

Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov bildirib ki, Azərbaycanın da həmmüəllif kimi qoşulduğu BMT Baş Assambleyasının 2015-ci il 3 iyun tarixli qətnaməsinə uyğun olaraq beş ildən bir keçirilən Ümumdünya Statistika Günü ölkəmizdə də təntənəli qeyd edilir: "BMT-nin Statistika Komissiyasının 2025-ci il 4-7 mart tarixlərində keçirilmiş 56-cı sessiyasında BMT Baş katibinin Ümumdünya Statistika Günü ilə bağlı təqdim olunmuş məruzəsinə əsasən, bu əlamətdar gün cari ildə beynəlxalq, milli və regional səviyyədə "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarı altında keçirilir. Bu günün təsis edilməsində əsas məqsəd cəmiyyətin bütün üzvlərinin, xüsusilə beynəlxalq təşkilatların, elmi dairələrin, medianın, rəsmi statistikanın bütün istehsalçı və istifadəçilərinin diqqətinin müasir dövrün problemlərinin həlli üçün adekvat informasiya təminatında mühüm rol oynayan statistikaya yönəldilməsidir".

Komitə sədri vurğulayıb ki, qlobal mütərəqqi təşəbbüslərə böyük önəm və töhfə verən Azərbaycanda Ümumdünya Statistika Günü ilk dəfə 2015-ci ildə təntənəli şəkildə qeyd olunmuşdur: "Lakin 2020-ci ildə Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təcavüzündən sonra başlayan İkinci Qarabağ müharibəsi ilə əlaqədar Ümumdünya Statistika Gününün ölkəmizdə qeyd edilməsi mənəvi prinsiplər və etik normalar baxımından mümkünsüz hesab edilmiş və bununla bağlı Dövlət Statistika Komitəsi tərəfindən beynəlxalq təşkilatlara və dünya ölkələrinin statistika qurumlarına müraciət ünvanlanmışdır".

Tahir Budaqov qeyd edib ki, bu il - Vətən müharibəsindəki möhtəşəm Zəfərimizin 5 illiyində Ümumdünya Statistika Gününün ölkəmizdə də yüksək səviyyədə, təntənəli şəkildə qeyd olunması məqsədilə Dövlət Statistika Komitəsi kollegiyasının 2025-ci il 27 avqust tarixli, 7 nömrəli qərarı ilə təsdiq edilmiş "Ümumdünya Statistika Gününün qeyd edilməsinə dair Tədbirlər Planı"na uyğun olaraq, 24-26 sentyabr tarixlərdə Bakı şəhərində "Statistikanın inkişaf perspektivləri: beynəlxalq layihələrin rolu" mövzusunda 3-cü Beynəlxalq Statistika Forumu keçirilmişdir. Onun sözlərinə görə, Avropa, Asiya, Amerika və Afrika qitələrini təmsil edən 16 ölkənin və 10 beynəlxalq təşkilatın nümayəndə heyətlərinin, tanınmış elmi ictimaiyyət xadimlərinin və ekspertlərin qatıldıqları forum milli statistika sistemlərinin inkişafı, rəsmi statistika sahəsində yeni hədəflərin müəyyən edilməsi baxımından xüsusi əhəmiyyət daşımış, eləcə də qlobal statistik təşəbbüslərin, beynəlxalq və qabaqcıl təcrübələrin bölüşdürülməsində səmərəli platforma kimi beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə öz töhfəsini vermişdir: "Fürsətdən istifadə edərək forum iştirakçılarına ünvanladığı müraciətə, Ümumdünya Statistika Günü münasibətilə təbrikinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bir daha ölkə statistikləri adından təşəkkürümü bildirirəm. Ölkə başçısının müraciətində statistikanın əhəmiyyətinin ildən-ilə artaraq cəmiyyətin tərəqqisini, dövlət siyasətinin effektivliyini və qlobal çağırışlara cavabvermə qabiliyyətini qiymətləndirmək üçün mühüm vasitələrdən birinə çevrildiyini vurğulaması, Azərbaycanda milli statistika sisteminin ardıcıl şəkildə inkişaf etdirildiyi, rəsmi statistik məlumatların beynəlxalq standartlara uyğun, innovativ yanaşmalar əsasında istehsalının daim diqqət mərkəzində saxlanıldığı barədə dəyərli fikirlər bildirməsi statistikləri ruhlandırmaqla yanaşı, ölkəmizin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistika məlumatlarının vaxtında və keyfiyyətlə hazırlanması ilə bağlı məsuliyyətimizi daha da artırır".



Komitə sədri qeyd edib ki, tədbirlər planına uyğun olaraq yerli statistika orqanlarında da Ümumdünya Statistika Gününün qeyd edilməsi ilə bağlı tədbirlər görülmüş, bu günlə əlaqədar Dövlət Statistika Komitəsinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılmış, statistik maarifləndirmə məqsədilə materiallar hazırlanaraq mediada çıxışlar edilmiş, "Statistika xəbərləri" elmi-praktik jurnalının Ümumdünya Statistika Gününə həsr olunmuş xüsusi buraxılışı hazırlanmışdır: "Xüsusi buraxılışda BMT-nin Statistika şöbəsinin direktoru, MDB Dövlətlərarası Statistika Komitəsinin sədri, Bolqarıstan, Koreya Respublikası, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkiyənin statistika qurumlarının rəhbərləri tərəfindən Azərbaycan statistiklərinə Ümumdünya Statistika Günü ilə bağlı ünvanlanmış təbriklər, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin, Dövlət Gömrük Komitəsinin və Mərkəzi Bankın sədrlərinin, Qazaxıstan, Gürcüstan, Serbiya, Macarıstan, Belarus və Türkiyə milli statistika qurumlarının rəhbərlərinin və yüksəkvəzifəli əməkdaşlarının, eləcə də ölkənin tanınmış elm adamlarının statistikanın aktual məsələlərinə həsr olunmuş məqalələri əksini tapmışdır. Gənclər arasında statistikaya marağın artırılması, statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiada isə xüsusi əhəmiyyəti ilə seçilən tədbirdir".

Tahir Budaqov bildirib ki, rəsmi statistikaya olan inam və etibarın qorunub saxlanılması, rəsmi statistikanın əsas prinsiplərinə sadiq qalaraq və "Hər kəs üçün keyfiyyətli statistika ilə inkişafa təkan verək" şüarını rəhbər tutaraq bəşəriyyətin gələcəyi naminə düzgün qərarların qəbul olunması üçün statistik məlumatların vaxtında və keyfiyyətlə hazırlanaraq istifadəçilərə təqdim edilməsi bu gün statistiklərin qarşısında duran ən mühüm vəzifədir: "Müsbət haldır ki, ölkələrin sosial-iqtisadi inkişaf prioritetlərinin müəyyən edilməsi üçün informasiya təminatında xüsusi rola malik olan milli statistika sistemləri təşəkkül tapdığı dövrdən etibarən beynəlxalq səviyyədə müəyyən edilmiş fundamental dəyərləri qoruyub saxlamış və böyük inkişaf yolu keçərək daim yeni perspektiv hədəflərə doğru irəliləmişdir. Milli və qlobal çağırışlara layiqincə cavab verməyi özünün əsas hədəfi hesab etməklə qlobal statistika ailəsinin bir üzvü kimi Azərbaycanın milli statistika sistemi də son illər ərzində daim tərəqqiyə can atmış, ciddi islahatlar yolu ilə yeni tələblərə uyğun inkişaf etdirilmişdir".

Azərbaycanda milli statistika sisteminin inkişafının Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olduğunu söyləyən komitə sədri qeyd edib ki, ölkədə onun rəhbərliyi ilə yaradılmış hüquqi baza əsasında bazar iqtisadiyyatı prinsiplərinə uyğun milli statistika sisteminin formalaşdırılması prosesinə başlanılmış, sonrakı illərdə uğurla davam etdirilən islahatlar rəsmi statistikanın inkişafına güclü təkan vermiş, bu sahədə ardıcıl qəbul olunmuş 6 dövlət proqramı uğurla icra edilmişdir: "Bu proqramlar çərçivəsində köklü islahatlar həyata keçirilmiş, o cümlədən milli statistik təsnifatların, müasir metodologiyaların hazırlanması və tətbiqi, Milli Hesablar Sisteminin qurulması, yeni statistika sahələrinin yaradılması və təkmilləşdirilməsi, istifadəçilərin statistik məlumatlara olan tələbatının ödənilməsi, elektron statistikanın inkişafı, sahibkarların üzərinə düşən statistik yükün azaldılması, rəsmi statistika istehsalı proseslərinin səmərəliliyinin yüksəldilməsi, keyfiyyəti idarəetmə sisteminin tətbiqi, metaməlumatların işlənilməsi, statistika orqanlarının maddi-texniki bazasının gücləndirilməsi və digər istiqamətlərdə mühüm tədbirlər görülmüşdür. Bunun nəticəsidir ki, ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən aparılmış qlobal qiymətləndirmədə xarici ekspertlər həyata keçirilən islahatları yüksək qiymətləndirərək Azərbaycanın milli statistika sisteminin beynəlxalq standartlara uyğun olduğunu qeyd etmiş, Dövlət Statistika Komitəsi "Rəsmi statistika məlumatlarının istehsalı və yayılması" sahəsində nüfuzlu beynəlxalq audit təşkilatları tərəfindən ISO 9001:2015 Keyfiyyəti İdarəetmə Sisteminə dair beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür. Dövlət Statistika Komitəsi Azərbaycanda bu uyğunluq sertifikatına layiq görülən ilk mərkəzi icra hakimiyyəti orqanı olmaqla yanaşı, MDB məkanında da bu sertifikatı əldə edən ilk statistika qurumudur. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə qiymətləndirilməsinin nəticələrinə görə, Dövlət Statistika Komitəsi son illərdə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşmışdır".

Komitə sədrinin sözlərinə görə, son illərdə baş verən qlobal siyasi, sosial və iqtisadi proseslər fonunda çevik qərarların qəbul edilməsi, onların icra vəziyyətinin qiymətləndirilməsi üçün etibarlı statistikanın təşkili zərurəti bu gün statistiklərin qarşısında yeni və həlli vacib daha mürəkkəb vəzifələr qoyur, informasiya texnologiyalarının sürətli inkişafı, alternativ, qeyri-ənənəvi məlumat mənbələrinin yaranması isə statistik proseslərin fasiləsiz modernizasiyasını, güclü potensiala malik kadrların formalaşdırılmasını tələb edir: "Bununla əlaqədar hesab edirik ki, iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə statistik göstəricilər sisteminin, metodologiyaların hazırlanması və təkmilləşdirilməsi, müşahidələrin aparılması, əldə edilən statistik məlumatların yayımı, ümumilikdə rəsmi statistika qarşısında duran vəzifələrin vaxtında və keyfiyyətlə icrası statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının daha da gücləndirilməsini, habelə milli statistika sisteminin növbəti çoxillik dövr üzrə strateji inkişaf prioritetlərinin müəyyənləşdirilməsini şərtləndirir. Bu məqsədlə də Dövlət Statistika Komitəsi tərəfindən 2026-2030-cu illərdə rəsmi statistikanın inkişafına dair növbəti hədəflər artıq müəyyən edilmişdir. Yeni hədəflərin icrası demoqrafiya və əhali sakinliyi, milli hesablar, kənd təsərrüfatı, sənaye, nəqliyyat və turizm, işçi qüvvəsi, ev təsərrüfatları büdcələri, əhalinin fasiləsiz təhsildə iştirakı, əlilliyi olan şəxslərin, peşə və orta ixtisas təhsili müəssisələrinin məzunlarının məşğulluğu ilə bağlı aktual statistik məlumatların əldə olunmasına, eləcə də statistikanın yeni sahələri kimi formalaşmaqda olan "yaşıl inkişaf", rəqəmsal iqtisadiyyat, mədəni və yaradıcı sənaye sahələri, elm, texnologiya və innovasiyalarla bağlı yeni göstəricilər üzrə statistik istehsalın təşkilinə, inzibati məlumat mənbələrindən istifadəni genişləndirməklə respondentlərin üzərinə düşən statistik yükün azaldılmasına, beynəlxalq səviyyədə makroiqtisadi müqayisələr üçün ən mühüm beynəlxalq statistika standartı kimi qəbul olunan Milli Hesablar Sisteminin yenilənmiş 2025-ci il versiyasının tətbiqi ilə beynəlxalq müqayisəliliyi təmin etməklə informasiya təminatının yüksəldilməsinə, eləcə də statistik istehsalın hüquqi və informasiya təminatının, beynəlxalq əməkdaşlığın, statistika orqanlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsinə, milli statistika sisteminin fəaliyyətini qiymətləndirməklə növbəti strateji inkişaf prioritetlərinin müəyyən olunmasına, ümumilikdə rəsmi statistikanın dayanıqlı inkişafına mühüm töhfə verəcəkdir".

Tahir Budaqov çıxışının sonunda fəaliyyət göstərdiyi sahədən asılı olmayaraq, rəsmi statistika istehsalı prosesinə öz töhfəsini verən hər bir şəxsi bu əlamətdar gün münasibətilə təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini İdris İsayev Ümumdünya Statistika Günü ilə bağlı Dövlət Statistika Komitəsi tərəfindən gənclər arasında statistikaya marağın artırılması, statistik biliklərə malik istedadlı gənclərin aşkar edilərək həvəsləndirilməsi məqsədilə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında keçirilən statistik olimpiadanın xüsusi əhəmiyyətindən bəhs edərək belə tədbirlərin gənclər üçün statistika elmi, habelə ölkənin sosial-iqtisadi həyatında baş verən hadisə və proseslər haqqında daha geniş rəsmi statistik məlumatları əldə etmək imkanları yaratdığını bildirib.

Statistik olimpiadanın yekunlarına dair hesabat məruzəsi ilə çıxış edən Dövlət Statistika Komitəsi sədrinin müavini, təşkilat komitəsinin sədri Yusif Yusifov qeyd edib ki, olimpiadada ümumilikdə 3355 nəfər şagird, 198 nəfər tələbə iştirak etmişdir: "Şagirdlər arasında keçirilmiş olimpiadanın nəticələrinə görə, Qusar rayonu Hil kəndi Kərim Kərimov adına tam orta ümumtəhsil məktəbinin 11-ci sinif şagirdi Günel Yafəs qızı Qurbanova 1-ci, Kəngərli rayonu Qıvraq qəsəbə tam orta məktəbin 11-ci sinif şagirdi Suat Ziya oğlu Novruzov 2-ci, İmişli şəhəri Aslan Eminov adına 7 nömrəli tam orta ümumtəhsil məktəbinin 9-cu sinif şagirdi Əli Elməddin oğlu Alışov 3-cü, tələbələrdən isə Bakı Ali Neft Məktəbi "Biznesin idarə edilməsi" ixtisası üzrə 5-ci kurs tələbəsi Murad Çingiz oğlu Xəlilli 1-ci, 4-cü kurs tələbəsi Arif Mirabbas oğlu Aslanov isə 2-ci, Azərbaycan Dövlət Aqrar Universiteti "Marketinq" ixtisası üzrə 3-cü kurs tələbəsi Ülvi Qubad oğlu Hacıyev 3-cü yeri tutmuşdur".

Statistik olimpiadanın final mərhələsinə keçmiş tələbə və şagirdlərə sertifikat və hədiyyələr, olimpiadanın qaliblərinə isə diplom və hədiyyələr təqdim olunmuş, xatirə şəkilləri çəkilmişdir.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 21 iyun 2025-ci il tarixli sərəncamı ilə təltif edilmiş komitə əməkdaşlarına orden və medallar təqdim olunmuşdur. Təltif olunan əməkdaşlar dövlət başçısına öz minnətdarlıqlarını bildirmişlər.

Sonda media nümayəndələrinin sualları cavablandırılıb.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## *"Dünya" qəzeti:* "Zəngəzur dəhlizi Türkiyəni Avropanın logistika mərkəzinə çevirəcək"

**Zəngəzur dəhlizi Türkiyəni bütün Avropa bazarını təmin edən böyük anbarlara malik qlobal logistika mərkəzinə çevirəcək.**

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyənin "Dünya" qəzeti Niderlandın "Raben" qrupunun baş direktoru Evald Rabenə istinadla məlumat yayıb.

O, Türkiyədə anbar sahəsinə investisiyaların genişləndirilməsi planlarını bölüşərək qeyd edib ki, hazırda "Raben" 17 ölkədə 170 anbar şəbəkəsini idarə edir və qrupun 2024-cü ilin sonuna qədər gəliri 2,2 milyard avroya çatıb.

Baş direktorun sözlərinə görə, Zəngəzur dəhlizi açılarsa, Türkiyənin logistika sahəsində rolu tamamilə dəyişəcək. O əlavə edib: "Dəniz yollarından asılı olan qlobal yükdaşımaların əhəmiyyətli bir hissəsi Türkiyədən keçəcək. Çatdırılma müddətləri və xərclər baxımından üstünlüklər qalıcı olarsa, Türkiyə bütün Avropanı təmin edən anbar mərkəzinə çevriləcək. Bu ssenaridə biz Türkiyədə anbar sahəsinə investisiyaları artıracağıq".




"Raben" şirkətinin baş direktoru rəhbərlik etdiyi qrupun məqsədinin türk ixracatçıları üçün Avropaya "pəncərə" rolunu oynamaq olduğunu vurğulayıb.

## "Sinxua" Agentliyi Azərbaycan-Çin iqtisadi əməkdaşlığının inkişafından yazıb

**Çinin "Sinxua" Xəbər Agentliyi Azərbaycanın fındıq və badamının Çinə ixracına dair protokolun imzalanması ilə bağlı xüsusi reportaj hazırlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin şöbə müdiri Əkbər Əliyev Çin nəşrinə Azərbaycan nümayəndə heyətinin bu yaxınlarda Çinə işgüzar səfərinin nəticələri barədə danışıb.




O qeyd edib: "Bu il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Çin Xalq Respublikasına səfər etdi. Bu səfər ikitərəfli əlaqələrə mühüm təkan verdi. Məhz bu əlaqələrin inkişafı çərçivəsində fındıq ixracı layihəsi həyata keçirildi, Azərbaycan istehsalçıları üçün dünyanın ən böyük bazarlarından birinə çıxış açıldı. Agentliyin nümayəndə heyətinin səfərinin məqsədi Azərbaycandan Çinə fındıq və badam ixracı ilə bağlı protokol imzalamaq idi. Biz çinli həmkarlarımız ilə sıx əməkdaşlığı davam etdiririk, toyuq məhsulları, alma və giləmeyvə kimi digər məhsulların ixracını genişləndirmək üçün birlikdə işləməyə davam edəcəyik".

Şöbə müdirinin sözlərinə görə, protokolun imzalanması Azərbaycan ilə Çin arasında kənd təsərrüfatı məhsullarının ixracının daha da genişləndirilməsi və iqtisadi əməkdaşlığın möhkəmləndirilməsi üçün möhkəm zəmin yaradır.

Xatırladaq ki, bu günlərdə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin nümayəndə heyəti Çində səfərdə olub. Səfər zamanı Çin Xalq Respublikasının Baş Gömrük İdarəsi ilə Azərbaycandan Çinə ixrac edilən fındıq və badama olan təftiş, karantin və sanitar tələblərə dair protokol, habelə ərzaq məhsullarının idxalı və ixracı üzrə əməkdaşlıq mexanizmi haqqında sənəd layihəsi imzalanıb.

# Azərbaycanın xarici siyasətinin uğurları

## İki dövlət, bir hədəf

### Azərbaycan-Qazaxıstan iqtisadi münasibətləri bütövlükdə türk dünyasının güclənməsinə xidmət edir

**Son illər Azərbaycan və Qazaxıstan arasında iqtisadi münasibətlər daha sürətlə inkişaf edir. Ticarət, enerji və nəqliyyat sahələrində qurulan geniş əməkdaşlıq iki ölkə arasındakı əlaqələrin yeni mərhələyə çatdığını göstərir.**



Təkcə bu ilin birinci yarısında Azərbaycanla Qazaxıstan arasında ticarət dövriyyəsinin dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə dörd dəfədən çox artaraq 501 milyon dolları keçib. Keçən il isə bu göstərici 50 faiz artımla 470 milyon dollara yüksəlmişdi. Bu yüksəliş həm ikitərəfli əlaqələrin dinamikasını göstərir, həm də bütövlükdə Avrasiya regionunda iqtisadi inteqrasiyanın güclənməsinə əlavə təkan verir.

Prezident İlham Əliyev oktyabrın 18-də Qazaxıstanın "Kazinform" agentliyinə verdiyi müsahibəsində iki ölkə arasında nəqliyyat, logistika, neft-qaz sahələrində əməkdaşlığın sürətli inkişafından, həmçinin "yaşıl enerji" sahəsində birgə işin perspektivlərindən, Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində təşəbbüslərdən söz açaraq deyib: "Bu günə qədər ölkədə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitinə yüksək etimadı təsdiq edir və qarşılıqlı iqtisadi fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır. Qarşılıqlı ticarətdə də müsbət dinamika özünü aydın şəkildə göstərir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib. 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çox olmaqla 547 milyon dollara çatıb. Bu artım Orta dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə bağlıdır".

Bu gün iki ölkə arasında təkcə enerji və nəqliyyat deyil, logistika, kənd təsərrüfatı və sənaye sahələrində də əməkdaşlıq önəmli yer tutur. Xəzər dənizi üzərindən keçən beynəlxalq nəqliyyat dəhlizləri, xüsusən Orta dəhliz layihəsi çərçivəsində birgə fəaliyyət Azərbaycanın və Qazaxıstanın həm regional, həm də qlobal ticarət sistemindəki rollarını gücləndirir. Azərbaycan və Qazaxıstan arasında birgə iqtisadi komissiyaların fəaliyyəti, sərmayə qoyuluşu, həmçinin iş adamları arasında əlaqələrin genişləndirilməsi də iqtisadi münasibətlərin davamlı inkişafına xidmət edir. Bunlardan əlavə, nəqliyyat-kommunikasiya xətlərinin genişləndirilməsi, xüsusən 44 günlük Vətən müharibəsindən sonrakı dövrün reallığı olan Zəngəzur dəhlizinin (TRIPP) gündəmə gəlməsi Qazaxıstan üçün strateji baxımdan yeni imkanlar açır. Bu dəhliz regionun birləşdirilməsi və Avrasiya məkanında ticarət, logistika sahəsində canlanma yaratmaq baxımından strateji əhəmiyyətə malikdir. Çox vacib haldır ki, Azərbaycan və Qazaxıstan bu məsələdə ortaq maraqlara malikdir və məqsədləri üst-üstə düşür.

İki ölkənin beynəlxalq nəqliyyat-kommunikasiya dəhlizinə çevrilməsini hədəfləyən böyük layihələrdən biri də "Rəqəmsal İpək yolu"dur. Avropa ilə Asiyanı birləşdirəcək bu təşəbbüs çərçivəsində həyata keçirilən Xəzəraltı fiber-optik kabel magistralının inşası regionun rəqəmsal inteqrasiyasına və informasiya təhlükəsizliyinə mühüm töhfə verəcək. Bu strateji layihə Xəzər dənizinin dibi ilə 380 kilometr uzunluğunda fiber-optik kabel xəttinin tikintisini nəzərdə tutur. Bu xətt Azərbaycanın Sumqayıt və Qazaxıstanın Aktau şəhərlərini birləşdirəcək, yüksəkhəcmli məlumatların ötürülməsini və 400 terabit/s-ə qədər yüksəksürətli internet bağlantısını təmin edəcək.

Belə mühüm layihədə Azərbaycan və Qazaxıstan birgə addım atırlar. Xatırladaq ki, 2022-ci il sentyabrın 28-də "AzərTelecom" və "Kazakhtelecom" şirkətləri arasında Xəzər dənizinin dibi ilə fiber-optik rabitə xəttinin çəkilməsi layihəsinə dair strateji tərəfdaşlıq memorandumu imzalanmışdır. Layihə sadəcə iki ölkənin deyil, bütün regionun informasiya və texnologiya sahəsində gələcək inkişaf perspektivlərini müəyyən edir. "AzerTelecom" və "Kazakhtelecom" şirkətləri tikinti işlərini 2026-cı ilin sonuna qədər yekunlaşdırmağı planlaşdırır.

Bütün bunlarla yanaşı, iki ölkə arasında neft və neft məhsullarının ticarəti sahəsində uğurlu əməkdaşlıq davam edir. Bu əməkdaşlıq çərçivəsində Qazaxıstan mənşəli xam neft Bakı-Tbilisi-Ceyhan neft boru kəməri ilə dünya bazarına çatdırılır, Azərbaycanda emal olunur və digər işlər görülür. Yeri gəlmişkən qeyd edək ki, "SOCAR Midstream Operations" MMC 2023-cü ilin martından etibarən Qazaxıstanın Tengiz yatağından ayda 125 min ton həcmində neftin Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəqlinə başlayıb. Sözügedən müsahibədə Prezident İlham Əliyev bu məsələyə də toxunub: "Neft-qaz sektorunda SOCAR və "KazMunayQaz" Milli Şirkəti arasında Aktau-Ceyhan marşrutu üzrə ildə 1,5 milyon ton Qazaxıstan neftinin tranziti ilə bağlı baş saziş imzalanıb. 2024-cü ildə tranzit həcmlərinin mərhələli şəkildə artırılması və tariflərin aşağı salınması haqqında saziş imzalanıb. Aktau və Ələt limanları vasitəsilə daşımaların səmərəliliyini artırmaq üçün infrastrukturun modernləşdirilməsi, qatarların və s. yenilənməsi üzrə həyata keçirilən tədbirlər Orta dəhlizin Avropa ilə Asiya arasında əsas tranzit marşrutu kimi mövqeyinin möhkəmlənməsinə imkan verəcək".

Azərbaycan və Qazaxıstan arasında mövcud olan iqtisadi əməkdaşlıq bütövlükdə regionun inkişafı və sabitliyi baxımından mühüm əhəmiyyət daşıyır. Energetika sahəsində, xüsusilə neft və qaz layihələri ətrafında əməkdaşlığın güclənməsi, həmçinin nəqliyyat, logistika və kənd təsərrüfatı sahələrində inkişaf edən əlaqələr ikitərəfli münasibətlərin möhkəmlənməsinə və TDT çərçivəsində inteqrasiyanın dərinləşməsinə xidmət edir. Gələcəkdə birgə layihələrin və investisiya təşəbbüslərinin daha da genişlənməsi bu strateji tərəfdaşlığın potensialını tam reallaşdırmağa imkan verəcək.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan və Qazaxıstan strateji müttəfiqliyi möhkəmləndirir

**Azərbaycan və Qazaxıstanı bir-birinə bağlayan münasibətlər sadəcə siyasi və iqtisadi maraqlarla məhdudlaşmır. Bu münasibətlərin təməlində ortaq tarix, mədəniyyət, dil, milli köklər və türklük ruhu dayanır. Tarix boyu xalqlarımız arasında mövcud olan qardaşlıq münasibətləri bu gün müstəqil dövlətlər səviyyəsində sıx müttəfiqlik və strateji tərəfdaşlıq formasında öz təzahürünü tapmaqdadır.**



Azərbaycan-Qazaxıstan münasibətlərinin özünün ən yüksək inkişaf mərhələsini yaşadığını qeyd edən Milli Məclisin deputatı Kamran Bayramov qəzetimizə açıqlamasında bildirib ki, iki qardaş dövlət arasında formalaşmış qarşılıqlı etimad, hörmət və anlayış mühiti regionda sabitliyin, təhlükəsizliyin və tərəqqinin mühüm dayaqlarından biridir: "Prezident İlham Əliyev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin qarşılıqlı səfərləri, imzalanan sənədlər və aparılan yüksəksəviyyəli danışıqlar iki ölkə arasında əlaqələrin dərin strateji məzmun kəsb etdiyini bir daha sübut edir. Azərbaycan Mərkəzi Asiya regionunda yerləşən ölkələrlə, xüsusən də Türk Dövlətləri Təşkilatına üzv qardaş dövlətlərlə münasibətlərə xüsusi önəm verir. Bu siyasət təkcə regional inteqrasiyanın güclənməsinə deyil, həm də bütün türk dünyasının birliyinə və iqtisadi-siyasi koordinasiyasına yeni impuls verir. Qazaxıstan bu mənada Azərbaycanın ən mühüm tərəfdaşlarından biri olmaqla həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlıq platformalarında etibarlı müttəfiq kimi çıxış edir".

Deputat deyib ki, xalqlarımız arasında tarixi qardaşlıq və dostluq, qarşılıqlı dəstək və həmrəylik, oxşar mədəni ənənələr və mənəvi dəyərlər əsasında möhkəm bir strateji əməkdaşlıq modeli formalaşıb. Enerji, nəqliyyat, logistika, təhsil, mədəniyyət, kənd təsərrüfatı və humanitar sahələrdə uğurla həyata keçirilən layihələr bu əməkdaşlığın praktiki nəticələrini əyani şəkildə nümayiş etdirir.

K.Bayramov xatırladıb ki, Prezident İlham Əliyev Qazaxıstana dövlət səfəri ərəfəsində "Kazinform"a eksklüziv müsahibəsində bildirib ki, son üç ildə qardaş ölkəyə yeddinci səfəridir: "Qazaxıstana hər səfərimdə dinamik inkişafı, yeni uğurları müşahidə etmək mənim üçün xoşdur. Bu nailiyyətlər Prezident Kasım-Jomart Tokayevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü və düşünülmüş dövlət siyasətindən xəbər verir. Ölkənin modernləşdirilməsinə və iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş islahatların uğurla həyata keçirilməsi xüsusi təsir bağışlayır. Bu uğurlar münasibətilə bütün qardaş Qazaxıstan xalqını təbrik etmək istərdim. Həmin müddət ərzində Prezident Kasım-Jomart Kemeleviç Tokayev Azərbaycana altı dəfə səfər edib. Bütün bunlar ölkələrimiz arasında hərtərəfli tərəfdaşlıq və qarşılıqlı strateji fəaliyyətin inkişafına birgə səylərimizi nümayiş etdirir. Bundan əlavə, müntəzəm təmaslar bizə gündəlikdə duran aktual məsələləri operativ şəkildə həll etməyə və əməkdaşlığın əsas istiqamətləri üzrə razılaşdırılmış mövqeləri müəyyənləşdirməyə imkan verir".

Deputat diqqətə çatdırıb ki, mövcud dostluq və qarşılıqlı etimad ruhunda inkişaf edən Azərbaycan-Qazaxıstan münasibətləri bu gün təkcə regional deyil, eyni zamanda beynəlxalq müstəvidə də mühüm nümunə kimi dəyərləndirilir. Hər iki ölkə arasında əməkdaşlığın strateji xarakter alması qarşılıqlı siyasi iradənin və qardaşlıq münasibətlərinin təzahürüdür. Bu istiqamətdə atılan addımlar qarşılıqlı faydalı tərəfdaşlığın dərinləşməsinə, iqtisadi və humanitar əlaqələrin daha da genişlənməsinə şərait yaradıb. Məhz bu kontekstdə Prezident İlham Əliyev Azərbaycan-Qazaxıstan münasibətlərinin hüquqi əsaslarının möhkəmliyini və onların gələcək inkişaf perspektivlərini xüsusi vurğulayaraq bildirib ki, ötən illər ərzində möhkəm hüquq-müqavilə bazası - təqribən 170 sənəd işlənib hazırlanıb, siyasi, iqtisadi-ticari, investisiya, mədəni-humanitar və digər sahələrdə səmərəli əməkdaşlıq mexanizmləri yaradılıb. İkitərəfli əlaqələrin möhkəmlənməsi ilə yanaşı, Azərbaycan və Qazaxıstan arasında siyasi dialoqun institusional əsasda davam etdirilməsi də xüsusi əhəmiyyət daşıyır. Bu istiqamətdə yaradılan yeni əməkdaşlıq mexanizmləri qarşılıqlı əlaqələrin daha sistemli şəkildə inkişafına xidmət edir və iki ölkə arasında strateji tərəfdaşlığın real məzmunla zənginləşməsinə imkan yaradır.

Deputat qeyd edib ki, Azərbaycan və Qazaxıstan arasında iqtisadi-ticari əməkdaşlıq əlaqələri son illərdə xüsusilə dinamik inkişaf mərhələsinə qədəm qoyub: "İkitərəfli münasibətlərin strateji səviyyəyə yüksəldilməsi təkcə siyasi dialoqla məhdudlaşmır, həmçinin iqtisadi əməkdaşlığın yeni istiqamətlərini formalaşdırır. Hər iki ölkə arasında həyata keçirilən birgə layihələr, yaradılan biznes-forumlar, investisiya təşəbbüsləri və qarşılıqlı ticarət missiyaları bu əməkdaşlığın praktiki nəticələrini daha da gücləndirir. Bu günə qədər ölkəmizdə Qazaxıstan kapitalı ilə 250-yə yaxın kommersiya strukturu qeydə alınıb. Bu, investisiya mühitinə yüksək etimadı təsdiq edir və qarşılıqlı iqtisadi fəaliyyətin daha da genişləndirilməsi üçün möhkəm zəmin yaradır. Qarşılıqlı ticarətdə də müsbət dinamika özünü aydın şəkildə göstərir. 2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 470 milyon dollar təşkil edib. 2025-ci ilin yanvar-avqust aylarında isə ötən ilin müvafiq dövrü ilə müqayisədə üç dəfə çox olmaqla 547 milyon dollara çatıb. Bu artım Orta dəhlizin potensialından səmərəli istifadə, nəqliyyat və logistika infrastrukturunun sistemli modernləşdirilməsi ilə sıx bağlıdır".

K.Bayramov bildirib ki, Azərbaycan və Qazaxıstan arasındakı münasibətlərin möhkəm təməl sütunlarından biri də mədəni-humanitar əməkdaşlıqdır. Xalqlarımız arasında tarixi, mənəvi və mədəni bağların dərin kökləri bu sahədəki əlaqələrin davamlı inkişafına təkan verir. İki ölkə arasında təkcə siyasi və iqtisadi deyil, həm də mədəni inteqrasiya istiqamətində həyata keçirilən layihələr xalqlarımızı bir-birinə daha da yaxınlaşdırır, ortaq türk kimliyinin təbliği və qorunmasına mühüm töhfə verir. Mədəni əməkdaşlıq eyni zamanda xalq diplomatiyasının mühüm vasitəsi kimi çıxış edir. Bu əlaqələr yalnız rəsmi səviyyədə deyil, yaradıcı ictimaiyyətlər, elm və təhsil ocaqları, incəsənət və ədəbiyyat xadimləri arasında da genişlənir. Hər iki ölkə bu istiqamətdə ardıcıl təşəbbüslər irəli sürür və qarşılıqlı mədəni təqdimatlar vasitəsilə ortaq tarixi irsin təbliğini prioritet istiqamət kimi müəyyənləşdirir. "2023-cü ildə Azərbaycanda Qazaxıstan, 2024-cü ildə isə Qazaxıstanda Azərbaycan mədəniyyəti günləri keçirilib. Belə tədbirlər xalqlarımız arasında yaradıcılıq əlaqələrinin dinamik inkişafını əks etdirir və iki ölkənin mədəni ənənələrinin qarşılıqlı zənginləşməsinə töhfə verir. Qazax ədəbiyyatının inkişafında mühüm xidmətləri olan ən görkəmli simalardan biri Kemel Tokayevin "Gecə açılan atəş" adlı povestlər toplusunun Azərbaycan dilində nəşrini məmnunluqla qeyd etmək istərdim. Həmçinin 2023-cü ildə Bakıda Kemel Tokayevin 100, Mir Cəlal Paşayevin 115 illik yubileylərinə həsr olunmuş beynəlxalq konfrans keçirilib", - deyə o xatırladıb.

Deputat deyib ki, Azərbaycan-Qazaxıstan münasibətləri regional və qlobal əhəmiyyət kəsb edən ekoloji məsələlərdə də qarşılıqlı anlayış və həmrəylik nümayiş etdirir. Mühitə dair çağırışlar, xüsusilə də iqlim dəyişikliyi və təbii resursların qorunması istiqamətində əməkdaşlıq son illərdə qarşılıqlı fəaliyyətin mühüm istiqamətlərindən birinə çevrilib. Bu baxımdan Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Xəzər dənizinin ekoloji vəziyyəti və onun gələcəyi region ölkələrinin birgə məsuliyyətini tələb edən strateji məsələlərdən biridir. Dövlət başçısı bu problemin həm ekoloji, həm də iqtisadi təhlükəsizlik müstəvisində ciddi nəticələr doğura biləcəyini vurğulayaraq, bütün Xəzəryanı dövlətlərin səylərinin birləşdirilməsinin vacibliyini önə çəkib: "Təəssüf ki, bu gün Xəzər dənizi bir sıra ciddi ekoloji problemlərlə üz-üzədir. Ən aktual məsələlərdən biri dayazlaşma - həm ekoloji, həm də iqtisadi təhlükələr yaradan suyun səviyyəsinin sürətlə azalmasıdır. 2022-ci ildə keçirilən VI Xəzər Zirvə Görüşündə mən Xəzər dənizində ekoloji tarazlığın pozulması məsələsini qaldırdım. Təəssüf ki, o vaxtdan bəri vəziyyət ancaq pisləşib. Xəzərdə suyun səviyyəsi sürətlə aşağı düşür və bunun səbəbləri təkcə iqlim dəyişikliyi ilə bağlı deyil. Yaranmış şəraitdə bütün Xəzəryanı ölkələr arasında sıx əməkdaşlıq qurmaq, fəal elmi informasiya mübadiləsi aparmaq və nəticələrin yumşaldılması üçün əlaqələndirilmiş tədbirlər işləyib hazırlamaq çox vacibdir".

Kamran Bayramov qeyd edib ki, Xəzər dənizinin ekoloji tarazlığının qorunması və dayazlaşmanın fəsadlarının aradan qaldırılması tək bir ölkənin deyil, bütün region dövlətlərinin birgə məsuliyyətidir. Ortaq səylər və koordinasiyalı yanaşma nəticəsində Xəzər dənizinin təbii tarazlığını qorumaq, onun gələcək nəsillər üçün ekoloji baxımdan sağlam və sabit bir su hövzəsi kimi saxlanılması mümkün olacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan-Qazaxıstan mövcud iqtisadi əlaqələrini şərtləndirən amillər və perspektiv



**Azərbaycan ilə Qazaxıstan arasındakı iqtisadi əlaqələri şərtləndirən 2 əsas istiqamət mövcuddur; birinci nəqliyyat-tranzit, ikinci isə enerji sahəsindəki əməkdaşlıq.**

AZƏRTAC xəbər verir ki, Asiya ilə Avropa arasındakı ticarət yolları üzərində yerləşən hər iki ölkənin Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta dəhliz) üzərində yerləşməsi qarşılıqlı münasibətlərin formalaşmasına və yüksələn xətlə inkişafına böyük töhfə verir. Prezident İlham Əliyev və Prezident Kasım-Jomart Tokayevin eyni ali məktəbdə təhsil almaları onların mütərəqqi dünyagörüşünün, siyasi prosesləri düzgün və praqmatik qiymətləndirmək qabiliyyətlərinin bənzər olduğunu deməyə əsas verir. Bu gün Azərbaycan ilə Qazaxıstanın tarixin inkişaf prosesində yaranan fürsətdən istifadə edərək Orta dəhliz ətrafında qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini daha da genişləndirməyə çalışması hər iki dövlət başçısının praqmatizmindən xəbər verir.

Azərbaycanın Çin və Mərkəzi Asiya bazarlarına çıxış əldə etməsində Qazaxıstan mühüm funksiyanı yerinə yetirir. Anoloji olaraq Azərbaycan vasitəsilə Şərqi və Qərbi Avropa ölkələrinə çıxış əldə edən Qazaxıstan iqtisadi və siyasi mövqeyini möhkəmləndirir. Tranzit nəqliyyat və enerji sahələrində əməkdaşlıq üçün hər iki ölkənin böyük potensialı var. Siyasi əlaqələrin dostluq xarakteri daşıması iqtisadi əlaqələrin inkişafına dəlalət edir. Bəs ölkələrin potensialı nədən ibarətdir və bu potensialdan necə səmərəli istifadə edilir?

Qazaxıstan hökumətinin hesabatına əsasən, ölkə 4,4 milyard ton neft və 3,8 trilyon kubmetr qaz ehtiyatlarına malikdir. Qazaxıstan dünyanın ilk 10 neft istehsalçısı ölkəsindən biridir. Ölkədə çox zəngin daş kömür yataqları var. Xrom istehsalına görə Cənubi Afrika və Zimbabvedən sonra 3-cü yerdədir. Xrom və mis istehsalı əsasən Qərb investisiyaları ilə həyata keçirilir. "Kazakhmys" şirkəti ildə təxminən 28 min ton mis və 98 min ton sink çıxarır. Uran istehsalına görə dünyada 4-cü yerdədir. "Kazatomprom" şirkəti dünyanın ən böyük 5 uran şirkətindən biridir.

Son 30 ildə neft hasilatı 3,3 dəfə, qaz hasilatı isə 6,4 dəfə artıb. Müstəqillik dövrü ərzində ümumi daxili məhsul (ÜDM) 17 dəfə, əhalinin hər nəfərinə düşən ÜDM-in həcmi 13 dəfə artıb. Təsadüfi deyil ki, Çin və Rusiya kimi iki super güclə qonşu olmasına baxmayaraq, onun ixracının 50 faizdən çoxu Avropa İttifaqı ölkələrinin və Böyük Britaniyanın payına düşür. Dünyanın 120-dən çox ölkəsindən bu günə kimi 365 milyard dollardan çox birbaşa investisiya cəlb edilib. Qazaxıstanın iqtisadi potensialı onun ixrac imkanlarını artırır, dünya bazarlarına çıxış ehtiyacı yaradır. Azərbaycanın isə inkişaf etmiş nəqliyyat və tranzit infrastrukturu qaşılıqlı faydalı əməkdaşlıq əlaqələrini şərtləndirib və zərurətə çevirib. Bu əməkdaşlığı reallığa çevirən Orta dəhliz yalnız Çindən Avropaya yük daşımaq üçün deyil, eyni zamanda coğrafi mövqeyi ilə dəhliz boyu yerləşən dövlətlərin, o cümlədən Qazaxıstan ilə Azərbaycan arasında iqtisadi əlaqələri, ticarət dövriyyəsini, idxal-ixrac əməliyyatlarını artırır. Qazaxıstanın dünya bazarına çıxışında Bakı Beynəlxalq Dəniz Limanı aparıcı rola malikdir. Təsadüfi deyil ki, ötən il Qazaxıstanın Aktau limanı ilə Bakı Beynəlxalq Dəniz Limanı arasında yükdaşımanın həcmi 1 milyon 625 min tona çatıb.

Avrasiyada regionun əsas nəqliyyat və logistika qovşağı rolunu oynayan Bakı Beynəlxalq Dəniz Limanı Avropa və Asiyanı birləşdirən qədim İpək yolunun üzərində yerləşir. Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun mühüm hissəsi olan bu liman 400 hektarlıq ərazini əhatə etməklə müasir əməliyyat sisteminin tətbiqi ilə bütün növ yüklər üçün operativ yükaşırma xidməti, açıq və qapalı anbar sahələri təklif edir. Əsas dəmir yolu və avtomagistralların birləşdiyi ərazidə yerləşən Bakı limanında Ro-ro, Bərə və Ümumi yük terminalından ibarət olmaqla 13 körpü mövcuddur. Hazırda limanın yükaşırma imkanı 15 milyon ton yük və 100 min TEU ekvivalentində konteynerdir. Limanın illik yükaşırma gücü 25 milyon ton və 500 min TEU konteynerə qədər artırıla bilər.

Bununla yanaşı, Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xətti Mərkəzi Asiyanın Qazaxıstan və Azərbaycan vasitəsilə Avropa bazarlarına çıxışı üçün çox əlverişli imkan yaradıb ki, bu da iki dövlət arasındakı iqtisadi və siyasi əlaqələrin möhkəmlənməsinə təkan verir. Cari ilin ötən 7 ayı ərzində BTQ ilə 250 min ton yük daşınıb. Ötən il BTQ-nin Gürcüstandan keçən hissəsi modernləşdirildi və illik yükdaşıma imkanı 1 milyon tondan 5 milyon tona yüksəldi. Türkiyə Xarici İşlər Nazirliyinin Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri Turhan Dilmanc mərkəzin tədqiqatına istinadla bildirib ki, 2034-cü ilə qədər BTQ ilə yükdaşımanın həcmi 17 milyon tona çatacaq. Beləliklə, Qazaxıstanın ixrac, Azərbaycanın isə tranzit potensialı dövlətlər arasındakı iqtisadi əlaqələrin əsasını yaratmaqla yanaşı, onların daha da yaxın münasibətlər quraraq strateji tərəfdaşa çevrilməsini şərtləndirib.

Enerji sahəsində əməkdaşlığa gəlincə, Qazaxıstan günəş və külək stansiyaları tikmək üçün öz geniş çöllərindən istifadə edərək "yaşıl enerji" mərkəzinə çevrilməyi hədəfləyib. Bu ölkənin külək potensialı ildə 1 trilyon 820 milyard kilovat-saatdan artıq, günəş enerjisi isə 1 trilyon kilovat-saatdır. Qazaxıstan bu il ümumi elektrik enerjisi istehsalında bərpaolunan enerjinin payını 6 faizə çatdırıb. 2030-cu ilə qədər bu rəqəmi 10 faizə, 2050-ci ilə qədər isə 50 faizə çatdırmağı planlaşdırıb.

Xatırladaq ki, Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında imzalanmış "Yaşıl enerjinin İnkişafı və Ötürülməsi Sahəsində Strateji Tərəfdaşlıq haqqında Saziş" üç ölkənin enerji sektorunda əməkdaşlığının yeni strateji çərçivəsini müəyyən etmək məqsədilə hazırlanıb. Ötən ilin noyabrında Bakı şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) zamanı dövlət başçıları tərəfindən imzalanan bu sənəd yaşıl və bərpaolunan enerji mənbələrinin inkişafı, enerji təhlükəsizliyinin təmin olunması və davamlı inkişaf məqsədlərinə töhfə verilməsi üçün mühüm bir addımdır. Sazişin əsas məqsədi Paris İqlim Sazişində nəzərdə tutulmuş istixana qazı emissiyalarının azaldılması hədəflərinə uyğun olaraq "yaşıl enerji"nin inkişafını təşviq etməkdir. Bu çərçivədə tərəflər bərpaolunan enerji mənbələrinin istehsalı, ötürülməsi və ticarəti sahəsində qarşılıqlı əməkdaşlıq edəcək, "yaşıl hidrogen" və "yaşıl ammonyak" texnologiyalarının tətbiqini dəstəkləyəcək. Həmçinin layihə Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarının enerji sistemlərinin inteqrasiyasını gücləndirərək, bərpaolunan enerjinin Avropaya və digər bazarlara ixracını asanlaşdıracaq. Bu əməkdaşlıq həmçinin Orta dəhlizin inkişafına və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə inteqrasiyasının dərinləşməsinə töhfə verəcək. Layihə Mərkəzi Asiya və Qafqaz regionlarının əməkdaşlığında yeni imkanlar açır və Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi təkcə üç ölkə arasında deyil, həm də daha geniş miqyasda əməkdaşlığa xidmət edəcək. Təsadüfi deyil ki, Avropa İttifaqı "Xəzər-Qara dəniz-Avropa" enerji dəhlizinin yaranmasına 1 milyard avro həcmində kredit ayıracağını bəyan edib.

Azərbaycana isə növbəti 5 il ərzində yaradılacaq azı 7 gigavat "yaşıl enerji" güclərinin 70 faizindən çoxunu ixraca yönəldəcək. Bu məqsədlə hazırda Avropaya müxtəlif marşrutlarla enerji təchizatının yeni xəritəsi tərtib edilir. Avropaya ilkin mərhələdə 4 gigavat "yaşıl enerji" tədarük edəcək "Xəzər-Qara dəniz-Avropa", Naxçıvandan 1 gigavat bərpaolunan enerjinin ixracı ilə yanaşı, Xəzərdən və Mərkəzi Asiyadan da elektrik enerjisinin Türkiyə və Avropaya ötürülməsi perspektivinə malik "Azərbaycan-Türkiyə-Avropa" "yaşıl enerji" dəhlizlərinin icrası istiqamətində də zəruri addımlar atılır. Layihələrin unikallığı ondan ibarətdir ki, bu dəhlizlər bərpaolunan enerji sistemində regionları və qitələri əlaqələndirəcək.

Azərbaycan ilə Qazaxıstan arasındakı nəqliyyat-tranzit və enerji sahələrində əməkdaşlıq tərəflər üçün faydalı və səmərəlidir. Bu əlaqələr təkcə iki dövlət və region üçün deyil, qlobal səviyyədə əlverişli imkanlar yaradır. Həmçinin Avropa qitəsinin enerji təhlükəsizliyinin və iqtisadi inkişafının təminatçısına çevrilir ki, bu da hər iki dövlətə siyasi zəmanət qazandırır. Bu zəmanət isə Asiya və Avropadan siyasi dəstək almaqdan ibarətdir.

# Azərbaycanın sosial sahədəki uğurları Dohada səsləndirildi

## Qətərin paytaxtında İƏT-ə üzv dövlətlərin Əmək Nazirlərinin 6-cı Konfransı keçirilib

**Qətər Dövlətinin paytaxtı Doha şəhərində İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin Əmək Nazirlərinin 6-cı Konfransı keçirilib. Konfrans "Yerli Təcrübələr, Qlobal Nailiyyətlər: İslam Dünyasında Uğurlu Hekayələr" mövzusuna həsr olunub.**



Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev İƏT-in fəal üzvü olan Azərbaycanın dünyada islam həmrəyliyinin və dəyərlərinin təbliğində mühüm rolunu vurğulayıb. Ölkəmizin son illər təşkilatın bir sıra yüksəksəviyyəli tədbirlərinə,




o cümlədən 2013 və 2023-cü illərdə Əmək Nazirlərinin Konfransına evsahibliyi etdiyini bildirib. O, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə İƏT-in Bakıda yaradılan və ötən il fəaliyyətə başlayan Əmək Mərkəzinin üzv ölkələr arasında əlaqələrin inkişafında önəmini, mərkəzin ötən ay keçirdiyi beynəlxalq tədbirləri diqqətə çatdırıb.

Nazir son altı ildə Azərbaycanda beş sosial islahat paketinin icra edildiyini deyərək bildirib ki, işçi hüquqlarının qorunması və əməyin mühafizəsi ölkəmizdə əsas prioritetlər sırasındadır. Azərbaycan Beynəlxalq Əmək Təşkilatının 59 konvensiyasını, bir protokolunu ratifikasiya edib və hazırda daha dörd konvensiyanın da ratifikasiya imkanları nəzərdən keçirilir. Həmçinin qadınlar üçün məşğulluq imkanlarının artırılması sahəsində son illər mühüm irəliləyişlər əldə edilib. Dünya Bankının "Qadınlar, Biznes və Hüquq" hesabatına əsasən, Azərbaycan dünya miqyasında öz reytinqini 104-cü yerdən 69-cu yerə yüksəldib.

Nazir ölkəmizdə qeyri-rəsmi məşğulluğa qarşı mübarizə tədbirlərinin müsbət nəticələrini, əmək bazarındakı müasir çağırışlara uyğun tətbiq edilən yeni məşğulluq xidmətlərini qeyd edib. O, iş yerlərinin yaradılmasını dəstəkləyən yeni aktiv məşğulluq proqramlarına başlandığını diqqətə çatdırıb. Bildirib ki, işçi qüvvəsinin bacarıqlarının inkişafına yönəlmiş peşə hazırlığı proqramı və gəncləri gələcək əmək bazarına hazırlamaq üçün peşəyönümü xidmətləri genişləndirilərək təkmilləşdirilib və artıq beynəlxalq əmək bazarının tələblərinə uyğun 1400-ə yaxın peşə və ixtisas standartı hazırlanıb.

Bu gün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən göstərilən 159 xidmətin 90 faizdən çoxunun rəqəmsal qaydada təqdim edildiyini bildirən nazir DOST modelinin uğurlarını, bu modelin Azərbaycanın yeni milli brendinə çevrildiyini vurğulayıb. O, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdiyini, işğaldan azad edilmiş ərazilərimizə köçürülmüş sakinlər üçün həyata keçirilən məşğulluq tədbirlərini qeyd edib. Əmək və sosial müdafiə sahəsində uğurlu təcrübələrimizi İƏT-ə üzv dövlətlərlə bölüşməyə və təcrübə mübadiləsi aparmağa hazır olduğumuzu vurğulayıb.

Konfrans çərçivəsində Anar Əliyev Türkiyənin əmək və sosial müdafiə naziri Vedat İşıkhan, Səudiyyə Ərəbistanı Krallığının insan resursları və sosial inkişaf nazirinin birinci müavini Abdullah Abuthnain və İordaniya Haşimilər Krallığının əmək naziri Xaled Al Bakkar ilə görüşüb.

Görüşlərdə sosial islahatlar, məşğulluq proqramlarının icrası, habelə əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin bacarıqlarının, rəqabət qabiliyyətinin artırılması prosesində təcrübə və məlumat mübadilələrinin əhəmiyyəti vurğulanıb. Sosial sahədə ikitərəfli əməkdaşlığın mövcud vəziyyətinə və gələcək istiqamətlərinə dair fikir mübadiləsi aparılıb.

# Energetiklər Günü ilə bağlı "Azərenerji" silsilə tədbirlər keçirib









**Energetika Nazirliyi, "Azərenerji" ASC və "Azərişıq" ASC-nin rəhbərliyi və kollektivi Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.**

"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, daha sonra energetiklər Şəhidlər xiyabanına baş çəkərək, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban verən qəhrəman Vətən övladlarının xatirəsini anıblar.

Bayram tədbiri "Azərenerji" ASC-nin Baş idarəetmə, elm, tədris və laboratoriya kompleksində davam edib. Artıq 21 ildir ki, 20 oktyabr tarixi Energetiklər Günü kimi qeyd olunur. Bu peşə bayramı Prezident İlham Əliyevin 2004-cü il 13 oktyabr tarixli sərəncamı ilə təsis edilib. Tarixin məhz bu gün seçilməsi təsadüfi olmayıb: 1981-ci il oktyabrın 20-də Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Cənubi Qafqazın ilk böyük istilik-elektrik stansiyası olan "Azərbaycan" İES-in birinci enerji bloku istifadəyə verilib. Bu il həm də "Azərenerji"nin yaranmasının 90 illiyi qeyd olunur.

Tədbir Dövlət himninin səsləndirilməsi ilə başlayıb, "İşıqla yazılan tarix" adlı film nümayiş olunub.

Daha sonra çıxış edən "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev cənab Prezident İlham Əliyevin daim diqqət və qayğısı ilə əhatələnən energetika sektorunda həyata keçirilən genişmiqyaslı işlər barədə məlumat verib. O bildirib ki, Prezident İlham Əliyevin balanslı şəkildə ənənəvi və "yaşıl enerji" mənbələrinə əsaslanan strategiyasına uyğun olaraq, son 20 ildə 5400 MVt gücündə yeni generasiya mənbələri yaradılıb. Təkcə son 5-6 ildə istifadəyə verilən yeni stansiyaların ümumi gücü 3000 MVt-dan artıqdır.

Son illərdə görülən tədbirlər nəticəsində 1 kilovat-saat elektrik enerjisinin istehsalı üçün sərf olunan şərti yanacağın miqdarı 284 qramdan 240 qrama endirilib. Baba Rzayev qeyd edib ki, bununla 3,3 milyard kubmetr təbii qaza qənaət edilib və 6,4 milyon ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb. "Bu gün Azərbaycan elektroenergetikası regionda bir çox inkişaf etmiş ölkə üçün nümunə göstəriləcək səviyyəyə çatıb. Bu, Prezident İlham Əliyevin düşünülmüş və hərtərəfli hesablanmış enerji strategiyasının bariz nümunəsidir", - deyə o vurğulayıb.

Energetiklər Günü ilə bağlı tədbirlər təkcə Bakıda deyil, regionlarda da keçirilib. "Azərenerji" tərəfindən ölkənin ən böyük yarımstansiyası olan 500/330 kV-luq "Nəvahi Yaşıl Enerji Qovşağı" ərazisində ağacəkmə aksiyası təşkil olunub. Naxçıvan Muxtar Respublikası, Qarabağ Regional Elektrik Şəbəkəsi və "Energetiklər şəhəri" adlandırılan Mingəçevir də daxil olmaqla müxtəlif bölgələrdə bayram tədbirləri baş tutub.

# Azərbaycan ilə Gürcüstan arasında ticarət dövriyyəsi 970 milyon dolları ötüb

**Cari ilin yanvar-sentyabr aylarında Gürcüstan ilə Azərbaycan arasında ticarət dövriyyəsinin həcmi 970,6 milyon dollar təşkil edib. AZƏRTAC xəbər verir ki, bu barədə Gürcüstanın Milli Statistika İdarəsi məlumat yayıb.**

Qurumun məlumatına görə, bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 1,43 faiz çoxdur.

Hesabat dövründə Azərbaycan Gürcüstanın ümumi ticarət dövriyyəsində 5,2 faiz payla Türkiyə, ABŞ, Rusiya, Çin və Qırğızıstandan sonra 6-cı yerdə qərarlaşıb.

Qeyd olunan dövrdə Gürcüstandan Azərbaycana 529,9 milyon dollar dəyərində məhsul ixrac edilib ki, bu da illik müqayisədə 2,6 faiz azdır. Azərbaycan Gürcüstanın ixracında 10,3 faiz payla qonşu ölkənin əsas ixrac tərəfdaşları arasında Qırğızıstan, Qazaxıstan və Rusiyadan sonra 4-cü yerdə qərarlaşıb.

Gürcüstanın Azərbaycandan idxal etdiyi məhsulların həcmi isə ötən ilin eyni dövrü ilə müqayisədə 6,4 faiz artaraq 440,7 milyon dollara yüksəlib. Azərbaycan 3,3 faiz payla qonşu ölkənin idxalında ABŞ, Türkiyə, Çin, Rusiya, Almaniya və Böyük Britaniyadan sonra 7-ci əsas idxal tərəfdaşı olub.

# Avropaya yeni mənbədən və yeni marşrutla qaz axını

## TAP-ın tikintisi 5 il əvvəl - Vətən müharibəsi davam etdiyi günlərdə yekunlaşdı

**2020-ci ilin oktyabr ayında, Vətən müharibəsinin davam etdiyi, bir-birinin ardınca düşməndən azad olunan şəhər və kəndlərimizin zəfər soraqlarını eşitdiyimiz günlərdə daha bir qələbəmizin müjdəsini aldıq. Bu, Azərbaycanın neft-qaz tarixində qazanılan, qlobal layihələr salnaməsinə yazılan bir qələbə idi. Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) tikintisi sona çatmışdı.**

TAP Azərbaycan qazını Xəzərin sahilindən İtaliya torpağınadək nəql edən 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ayrılmaz hissəsi, sonuncu seqmentidir. Başqa sözlə, bu kəmər Avropaya yeni mənbədən və yeni marşrutla qaz axınını təmin edir. TAP Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır.

Xatırladaq ki, "Cənub qaz dəhlizi" üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir. Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qaz Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya bu dəhliz vasitəsilə daşınır.

Trans-Adriatik Qaz Boru Kəməri "Şahdəniz-2" qazını Yunanıstanın və Albaniyanın ərazisindən, Adriatik dənizinin altından keçirərək İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Belə ki, TAP uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər həmin ölkənin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsinə birləşir.

TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulmuşdu. Həmin vaxtdan da kəmərin tikinti işlərinə başlanmışdı. Kəmərin çəkilişi inşaatçılardan böyük səriştə və məsuliyyət tələb edirdi. Çünki xəttin keçdiyi yol fərqli coğrafi şəraitdə yerləşir. Marşrut boyu kəmərin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdədir. Ən yüksək hissəsi isə Albaniya dağlarında 1800 metrə çatan zirvələrdən keçir.

TAP-ın bir sıra yerüstü obyektləri, məsələn, ölçmə və kompressor stansiyaları da var. Tikinti işlərinin çətinliyi həm də onunla bağlı idi ki, digər kəmərlərdən fərqli olaraq, TAP-ın bir hissəsi suyun altı ilə uzanır. Xəttin diametri əsasən 48 düymdür, yalnız dənizdən keçən hissəsində 37 düymlük borular düzülüb.

Kəmərin inşaatçıları öhdələrinə düşən vəzifəni müvəffəqiyyətlə yerinə yetirərək tikinti işlərini dörd ilə başa çatdırdılar. Bir neçə ay bundan sonra - 2020-ci ilin son günündə isə kəmər fəaliyyətə başladı. Elə həmin vaxtdan da fasiləsiz və təhlükəsiz olaraq işləyir. TAP-ın səhmdarları BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.




Məlum olduğu kimi, yeni çağırışlar qarşısında Avropanın qaza tələbatı getdikcə artır. Odur ki, Azərbaycandan mavi yanacaq idxal etmək istəyən ölkələrin də sayı çoxalır. Yeri gəlmişkən: bu gün Azərbaycan 14 ölkəyə qaz ixrac edir. Bunlardan 10-u Avropa ölkəsi, o cümlədən 8-i Avropa İttifaqının üzvüdür.

Azərbaycandan qaz almaq üçün yeni müraciətlər də var. İxrac coğrafiyasının genişləndirilməsi üçün isə ən vacib şərtlərdən biri müvafiq infrastrukturun olmasıdır. Yəni indi TAP-ın genişləndirilməsi məsələsi gündəmə gəlib. Bu baxımdan 2022-ci il oktyabrın 1-də Sofiya şəhərində Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışı mühüm addım oldu. Belə ki, IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. 2023-cü il dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun fəaliyyətə başlaması da göstərdi ki, nəzərdə tutulan işlər uğurla reallaşır.

Bir sözlə, 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artırmaq nəzərdə tutulur. Bu məsələ 2022-ci il iyulun 18-də imzalanmış Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda da öz əksini tapıb. İndi həmin hədəfə doğru uğurlu addımlar atılır.

Bu il oktyabrın 7-də Qəbələdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçıları Şurasının 12-ci Zirvə Görüşündəki çıxışında Prezident İlham Əliyev demişdir: "Sülh, regional bağlantılar və iqtisadi inkişafla əlaqəli olan digər mühüm istiqamət enerji təhlükəsizliyidir. Ölkəmiz bu məqsədlərin qlobal səviyyədə təmin edilməsində fəal rol oynayır. Azərbaycan bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində özünü etibarlı və əvəzolunmaz tərəfdaş kimi təsdiqləyib. Şaxələndirilmiş neft və qaz kəmərləri vasitəsilə Xəzər regionunun beynəlxalq bazarlara birləşdirilməsində strateji rol oynayırıq. Hazırda biz 14 ölkəyə təbii qaz ixrac edirik. Coğrafi əhatəsinə görə boru kəmərləri ilə təbii qaz ixrac edən ölkələr sırasında Azərbaycan birinci yerdədir".

Deyilənlərə onu da əlavə edək ki, 2025-ci ilin yanvar-sentyabr aylarında ölkədə 38,2 milyard kubmetr təbii qaz hasil olunub. Energetika Nazirliyinin bu məlumatında bildirilir ki, qazın 10,2 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun, 20,9 milyard kubmetri "Şahdəniz"in, 1,2 milyard kubmetri "Abşeron" yatağının, 5,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb.

9 ay ərzində xaricə qaz ixracı 18,3 milyard kubmetr təşkil edib. Bunun 7,3 milyard kubmetri Türkiyəyə (o cümlədən TANAP-la 4,3 milyard kubmetr), 1,6 milyard kubmetrə yaxını Gürcüstana, 9,4 milyard kubmetri Avropaya ixrac olunub.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# REGİONLAR

## Ağdam Sənaye Parkındakı müəssisələrin sayı işğaldan əvvəlkindən çoxdur

### "Araz Vadisi" Sənaye Parkında soyutma avadanlıqları istehsal olunacaq

**Artıq neçə zamandır Azərbaycanda icra edilən iqtisadi islahatların əsas hədəflərindən biri, bəlkə də birincisi qeyri-neft sektorunun inkişafına nail olmaqdır. Bu məqsədlə ölkədə qanunvericilik bazasında ciddi dəyişikliklər aparılmış, o cümlədən idarəetmədə inzibati üsullardan imtina edilmişdir.**

Ən önəmlisi bu sahə investisiya üçün açıq elan edilmiş və sərmayəçilərə bir sıra əsaslı güzəştlər tətbiq olunmuşdur. Bu imkandan isə yerli və xarici sahibkarlar yetərincə istifadə edirlər. Ölkədə məhsul istehsalında və ixracda qeyri-neft-qaz sənayesinin payının ildən-ilə artması onu göstərir ki, icra edilən bu kimi islahatlar öz müsbət nəticəsini verir.

Müsbət nəticəsini verən tədbirlərdən biri də sənaye parkları və məhəllələrinin yaradılmasıdır. Bu gün sənaye zonalarında çalışan sahibkarlar dövlətin bir çox güzəştlərindən kifayət qədər yararlanırlar. O səbəbdən son illər Azərbaycanda ən çox sərmayə sənaye zonalarına yatırılır. Yerli sahibkarlarla yanaşı, xarici investorlar da Azərbaycanın müxtəlif coğrafiyalarında yaradılan sənaye zonalarına maraq göstərirlər. Bu da təbiidir. Təkcə cari ilin 9 ayında yerli və xarici sərmayədarlar dövlətin sənaye zonalarında tətbiq etdiyi idxal ƏDV-si və gömrük güzəştlərindən yararlanaraq 524,5 milyon manat vəsaitə qənaət etmək imkanı qazanıblar.

İşğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərən sənaye parklarının rezidentlərinə də geniş vergi və gömrük güzəştləri tətbiq olunur. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, bu il oktyabrın əvvəlinədək Ağdam və "Araz Vadisi" sənaye parklarının rezidentlərinə 232 təsdiqedici sənəd təqdim olunub. Həmin sənədlər əsasında sahibkarlar idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində ümumilikdə 11 milyon manata yaxın vəsaitlərinə qənaət ediblər. Təkcə bu ilin ilk doqquz ayında 133 təsdiqedici sənəd verilib ki, bu da sahibkarlara 4,2 milyon manat qənaət imkanı yaradıb.

Məlumatda həmçinin bildirilir ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən böyük güzəştlərdən faydalanırlar. Xatırladaq ki, rezident sahibkarlar 10 il müddətinə əmlak, torpaq və gəlir vergilərindən azaddırlar. Bundan əlavə, istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı da ƏDV və gömrük rüsumları ödənilmir. Dövlətin təqdim etdiyi bu güzəştlər və təsdiqedici sənədlər sahibkarlara mühüm maliyyə üstünlükləri qazandırmaqla yanaşı, işğaldan azad olunmuş ərazilərdə sənaye fəaliyyətinin stimullaşdırılmasına marağı artırır.

Məlumatda Ağdam və "Araz Vadisi" sənaye parklarına investisiya qoyuluşunun məbləği də açıqlanıb. Bildirilib ki, indiyə qədər adları çəkilən sənaye parklarına 200 milyon manat investisiya yatırılıb. Bu sənaye zonalarında 50 sahibkarlıq subyekti rezident, 7 sahibkar qeyri-rezident kimi qeydiyyata alınıb.

"Sənaye parklarında 14 müəssisə fəaliyyət göstərir, 1000-dən artıq daimi iş yeri yaradılıb. Maraqlı məqamlardan biri budur ki, Ağdam Sənaye Parkındakı müəssisələrin sayı işğaldan əvvəl bölgədə mövcud olmuş müəssisələrin sayından çoxdur. Bununla da Ağdam öz əvvəlki sənaye nüfuzunu bərpa edib", - deyə agentlikdən bildirilib. Buna baxmayaraq, sözügedən sənaye parklarında yeni istehsal müəssisələrinin sayı artmaqda davam edəcək. Artıq sənaye parklarında rezident olmaq üçün sahibkarlar 10-dan çox yeni layihə təqdim ediblər. Əsas istiqamətlər tikinti materialları, mebel, tekstil və məişət məhsullarının istehsalı olacaq. Agentlikdən verilən məlumata görə, "Araz Vadisi" Sənaye Parkında 8 milyon manat investisiya ilə soyutma avadanlıqlarının istehsalı müəssisəsi qurulacaq və orada ildə 5 növ 3680-dən çox avadanlıq istehsal ediləcək. Ağdam Sənaye Parkında isə dəyəri 6 milyon manat olan mebel fabriki fəaliyyətə başlayacaq. Müəssisədə müxtəlif təyinatlı mebellər, yumşaq panellər və metal aksesuarlar istehsal olunacaq. Bu iki müəssisənin işə düşməsi isə əlavə olaraq 100-ə yaxın daimi iş yeri yaratmağa imkan verəcək.







*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



## III MDB Oyunları gəncəlilərə unudulmaz anlar yaşatdı

**Son illər ölkənin sosial-iqtisadi inkişafının nəticələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncədə də hər addımda hiss olunur. Görülən abadlıq və quruculuq işləri bu qədim şəhərə yeni görkəm verib, sorağını yaxın və uzaq ellərə yayıb. Bunu şəhərə gələn turistlərin sayının artması da sübut edir.**

Sentyabr ayının 28-də başlayan və oktyabrın 8-nə kimi davam edən III MDB Oyunlarının Gəncədə keçirilməsi isə o demək idi ki, şəhər hər cür beynəlxalq tədbirlərin keçirilməsi üçün də geniş imkanlara malikdir. Bununla belə, beynəlxalq yarışdan əvvəl şəhərdə geniş abadlıq və quruculuq işləri görüldü. Şəhərin içməli su və təbii qaz təchizatının yaxşılaşdırılması, müasir küçə işıqlandırılması sisteminin qurulması, çoxmənzilli yaşayış binalarının fasadlarının və dam örtüklərinin yenilənməsi, yolların təmiri, mədəniyyət, səhiyyə və təhsil ocaqlarının müasir tələblər səviyyəsində yenidən qurulması istiqamətində mühüm tədbirlər həyata keçirildi. Bu işlər təkcə şəhər mərkəzini yox, ətraf küçə və yaşayış massivlərini də əhatə etdi.

Gəncədə həyata keçirilən ən önəmli və genişmiqyaslı tədbirlərdən biri "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsidir. Şəhərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulmasını hədəfləyən layihə çərçivəsində su təchizatı sisteminin yenidən qurulması üzrə işlərin 43, kanalizasiya sisteminin yenidən qurulması üzrə isə 40 faizi icra olundu.

Gəncənin küçələrinin, qəsəbə və məhəllədaxili yollarının asfaltlanması da sözügedən layihəyə paralel şəkildə aparıldı. Su-kanalizasiya sistemlərinin yenilənməsi işləri tam başa çatan 100-ə yaxın küçədə abadlıq işləri görüldü, 70 faizdən artıq küçədə təmir işləri aparıldı, 50-yə yaxın küçənin asfalt örtüyü yeniləndi.

Şəhərdə icra olunan digər irimiqyaslı layihə müasir küçə işıqlandırılması sistemlərinin qurulması oldu. Layihə çərçivəsində ümumi uzunluğu 245 kilometr olan kabel xəttinin çəkilməsi, 8155 işıq dirəyinin quraşdırılması işləri başa çatdırıldı. 400-ə yaxın küçədə 7650 işıq dirəyi quraşdırılaraq qismən istifadəyə verildi. Aparılan yoxlama və quraşdırma işləri tam yekunlaşdıqdan sonra yeni işıq dirəkləri quraşdırılmış bütün ərazilərə enerjinin verilişi təmin olundu.

Gəncədə çoxmənzilli yaşayış binalarının dam ötrüklərinin yenilənməsi və fasadlarının təmirinə də diqqətlə yanaşıldı. Qeyd edək ki, şəhərdə ümumilikdə 865 çoxmənzilli yaşayış binası mövcuddur və oyunlar ərəfəsində onlardan 645-nin dam örtüyü tamamilə yeniləndi. Çoxmənzilli yaşayış binalarının fasadlarının təmiri ilə bağlı da müəyyən işlər görüldü. Həmçinin bu cür binaların həyətlərinin abadlaşdırılmasına başlanıldı. Şəhər icra hakimiyyətinin dəstəyi ilə Kəpəz və Nizami bələdiyyələri tərəfindən şəhər ərazisində "Abad məhəllə"lər salındı. Məhəllələrə asfalt döşəndi, tamet daşlar vuruldu, yeni bardurlar, işıq dirəkləri quraşdırıldı, məişət tullantıları üçün konteynerlər qoyuldu. Eyni zamanda yaşıllaşdırma işləri aparıldı, dekorativ agaclar əkildi, yaşıllıqların suvarılması üçün su xətləri çəkildi. Sakinlərin istirahəti də nəzərə alındı. Məhəllələrə söhbətgahlar və oturacaqlar qoyuldu, uşaq meydançaları quraşdırıldı.

Şəhərin yaşıllıq zolaqlarının qorunub saxlanılması, yeni yaşıllıq zolaqlarının salınması istiqamətində də işlər həyata keçirildi. III MDB Oyunları ərəfəsində və yarışların davam etdiyi günlər yaşıllıq zolaqlarına daimi qulluq göstərilir, şəhər ərazisində mütəmadi olaraq iməcilik və ağacəkmə aksiyaları təşkil olunurdu. Bu istiqamətdə atılan addımlardan biri də "Ekoloji Park Kompleksi"nin oyunlara hazırlığı oldu. Gəncə şəhər Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin "Gülçülük sahəsi"ndə yaradılan Ekoloji Park Kompleksi şəhərə gələn idmançıların və turistlərin böyük marağına səbəb oldu. Ümumi sahəsi 2100 kvadratmetr olan 3 mərtəbəli oranjereya binası qonaqlarda xoş təəssürat oyatdı.

Hazırda gəncəlilər III MDB Oyunlarının təəssüratı ilə yaşayırlar. Böyük idman bayramı ruhunda keçirilən oyunlar uzun illər şəhər sakinlərinin xatirəsində qalacaq. Yarışların dövlət başçısı və Birinci vitse-prezidentin də iştirak etdikləri açılışı isə gəncəlilərdə və qonaqlarda bir başqa ovqat yaratdı. Ali Baş Komandanın əmri ilə Azərbaycan Ordusunun erməni silahlı qüvvələrinə qarşı əks-hücum əməliyyatından bəhs edən kompozisiyalar tamaşaçılara bir daha qələbənin sevincini yaşatdı. Cəbhə bölgəsindən xeyli aralıda yerləşməsinə baxmayaraq, Gəncənin düşmənin hədəfinə çevrilməsi, 5 dəfə erməni silahlı qüvvələri tərəfindən raket atəşlərinə məruz qalmasını əks etdirən panoların, eləcə də "Dəmir yumruq" maketinin meydana gətirilməsi açılışa yeni ruh qatdı. Beləcə, həmin günün xoş anları stadiona toplaşanlarda sevinclə yanaşı, qürur hissi də yaratdı.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Şəhər içində şəhər ucalır

**Adam gözlərinə inana bilmir. Çox yox, iki il yarım əvvəl bura bomboş ərazi idi. İndi isə nəhəng tikinti meydançasına çevrilib. Bir tərəfdə kranlar çoxmərtəbəli binaların yuxarı mərtəbələrinə müxtəlif tikinti materiallarını qaldırır, bir tərəfdə binaların fasadları rənglənir, digər tərəfdə səkilər, yollar çəkilir, məhəllələrdə işıqlandırma sistemləri, uşaq əyləncə yerləri, yaşıl örtüklü voleybol meydançası, söhbətgahlar quraşdırılır və başqa işlər görülür.**



Söhbət Şirvan şəhərində salınan Yeni Şirvan yaşayış kompleksindən gedir. Azərbaycan Respublikası Mənzil İnşaat Dövlət Agentliyinin (MİDA) həyata keçirdiyi layihə çərçivəsində ümumi ərazisi 8,11 hektar olan kompleksdə 11-i onikimərtəbəli, 14-ü doqquzmərtəbəli olmaqla 25 yaşayış binası ucaldılır. Bunlardan başqa, kompleksdə 960 şagirdlik tam orta məktəb, uşaq bağçası və digər sosial əhəmiyyətli obyektlər inşa ediləcək.

Yaşayış kompleksində 1264 mənzil olacaq ki, onların da 32-si studio tipli, 216-sı ikiotaqlı, 768-i üçotaqlı, 248-i dördotaqlıdır. Studio tipli mənzillərin sahəsi 40,1, ikiotaqlı mənzillərin sahəsi 57,7, üçotaqlıların 72,8-76,7, dördotaqlıların sahəsi isə 98,7-114,6 kvadratmetrdir.

Qeyd etmək lazımdır ki, obyektdə görülən işlərin keyfiyyətinə nəzarət Mənzil İstismar Agentliyinin işçiləri tərəfindən ciddi şəkildə həyata keçirilir. Bu məqsədlə tikintidə iştirak edən 8 şirkətin məsul işçiləri ilə, demək olar ki, hər gün görüşlər keçirilir, ətraflı söhbətlər aparılır. Onlara izah edilir ki, respublikamız seysmik zonada yerləşdiyi üçün burada aparılan işlərə çox məsuliyyətlə yanaşılmalıdır. Bu baxımdan istifadə olunan armaturların, sement-beton qarışığının və başqa materialların keyfiyyəti diqqətdə saxlanılır.

Mənzillərin bir neçəsinə baş çəkdik. 3-4 otaqlı mənzillərin hər birində 2 sanitar qovşağı var. Divarlarına keyfiyyətli kafellər vurulur, döşəməsinə metlak döşənir. Qoyulan qapılar Belarus istehsalıdır. Hər bir otağa taxta döşəmənin üstündən laminat düzülür. Hazır olan mənzillərin mətbəx otağı və sanitar qovşaqları müvafiq ləvazimatlarla təchiz edilib. Divarlara zövqlə aboy çəkilib. Hər bir mənzilin eyvanında kombi istilik sistemi quraşdırılacaq. Artıq qaz xətti çəkilib. "MİDA" MMC-nin Tikintiyə Texniki Nəzarət Şöbəsinin mühəndisi Akif Quliyevin dediyindən məlum oldu ki, kompleksdəki 1264 mənzilin hər birində belə şərait olacaq.

Otaqları gəzib tanış olduqca adamın ürəyindən belə bir fikir keçir: "Allah hamıya belə bir mənzil qismət eləsin". Onu da düşünürsən ki, dövlətimiz Qarabağda misli görünməmiş miqyasda quruculuq işləri aparmaqla yanaşı, regionlarımızı da diqqətdən kənarda qoymur. Təkcə Şirvan şəhərində deyil, digər rayonlarımızda da tikinti-quruculuq, abadlıq işləri aparılır.

İlin sonuna kimi kompleksin istifadəyə verilməsi planlaşdırılıb. İşlərin, demək olar ki, 90 faizi başa çatdırılıb. Yol, su, kanalizasiya, işıq, qaz, infrastruktur məsələləri həll olunub.

Bax beləcə ölkəmizin sənaye şəhəri Şirvan böyüyür, inkişaf edir, boy atır. Bütün bunlar hər kəsdə xoş əhvali-ruhiyyə, ovqat yaradır.

*Gün keçir, vaxt ötür, illər dolanır.*
*Zaman ötüb keçir, tarix qocalır.*
*Gəncləşən Şirvanın qoynunda bu gün*
*Şəhərin içində şəhər ucalır.*

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Ağstafa üzümçüləri xarici bazarlara çıxmaq istəyirlər

**Əsasən kənd təsərrüfatı məhsulları istehsalının artırılması hesabına ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi bu gün dövlətin strateji hədəflərindəndir. Aqrar islahatların, bu sektora verilən dövlət dəstəyinin də məqsədi həmin hədəfə yönəlib.**

Ölkənin aqrar sektorunda fərqlənən rayonlardan biri də Ağstafadır. İqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən rayonda əvvəlki illərdə olduğu kimi, bu il də uğurlu göstəricilərə nail olunur. Bunun əsas səbəbi kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün bütün imkanlardan maksimum istifadə edilməsidir. Konkret rəqəmlərə keçək. Bu il rayon üzrə 8512,1 hektarda taxıl yetişdirən fermerlər hər hektar buğda sahəsindən 34,2, arpa sahəsindən 26,1 sentner məhsul götürmüşlər. 477,3 hektarda əkilən qarğıdalı sahəsinin hər hektarından isə 45,6 sentner məhsul əldə edilmişdir. Günəbaxan, bostan, tərəvəz istehsalı da



xeyli artmışdır. Kartof istehsalına gəldikdə, 673 hektar sahənin hər hektarından 266 sentner məhsul toplanmışdır.

Rayon üzümçüləri də bu il yüksək göstəriciyə nail olurlar. Hazırda bağlarda üzüm yığımı davam edir. 500,9 hektar üzüm bağında yetişdirilən məhsulun vaxtında və itkisiz yığılması üçün bütün qüvvələr səfərbərliyə alınmışdır.

Əvvəllər olduğu kimi, bu il də "AZ Konsalt" MMC bağlarda bol məhsul yetişdirmişdir. Keçən il 68 hektarda texniki üzüm sortu yetişdirən kollektiv 700 ton məhsul əldə etmişdir. Bu il məhsuldarlıq bol olduğundan bağbanlar həmin rəqəmi 800 tona çatdırmağı qarşılarına məqsəd qoymuşlar.

Rayonda bol üzüm yetişdirən kəndlərdən biri də Pirili kəndidir. Keçən il hər hektardan 60 ton məhsul götürən fermer Şamil Allahverdiyev cari il bu rəqəmi 80 tona çatdırmaq istəyir. Poylu kəndindən Qurban Aslanov isə 3 hektar üzüm bağından 20 ton məhsul gözləyir. Fermerin fikrincə, əsas məsələ istehsal olunan üzümün vaxtında satılmasıdır. Amma bu istiqamətdə bir sıra əngəllər var. Əsas problem məhsulu qonşu Rusiya bazarlarına ixrac etməkdədir ki, bunun həlli ilə də gərək hər iki ölkənin əlaqəli qurumları məşğul olsunlar.

*S.YUNİSOĞLU,*
*"Azərbaycan"*




# Müzəffər Sərkərdənin qüdrətli Ordusu

## Gəncə Memorial Kompleksində mülki şəhidlərin xatirəsi yad edilmişdir

**Gəncənin Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumuna məruz qalmasından 5 il ötür. Bununla əlaqədar Gəncə Memorial Kompleksində anım mərasimi keçirilmişdir.**

İştirakçılar - şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin və Gürcüstanın Gəncədəki baş konsulları Recep Öztop və Kaxaber Abdaladze, YAP şəhər təşkilatının sədri Bayram Aslanov, hüquq-mühafizə orqanlarının rəhbərləri, bələdiyyə, idarə, müəssisə və təşkilatların nümayəndələri memorial lövhənin önünə tər çiçəklər düzmüş, şəhidlərin ruhuna dərin ehtiramlarını bildirmişlər.



Çıxışlarda qeyd olunmuşdur ki, cəbhə xəttindən 80 kilometr aralıda yerləşən Gəncə Vətən müharibəsi dövründə müxtəlif vaxtlarda dəfələrlə raket atəşinə məruz qalmışdır. Bu hücumlar nəticəsində 6-sı uşaq olmaqla 26 mülki şəxs həyatını itirmiş, 180-ə yaxın dinc sakin isə yaralanmışdır. Mülki şəhidlərin xatirəsini əbədiləşdirmək üçün Prezident İlham Əliyevin tapşırığı ilə Gəncədə xüsusi Memorial Kompleks inşa edilmişdir. Kompleksin sentyabrın 27-də Prezident İlham Əliyevin iştirakı ilə açılışı olmuşdur.

Sonra din xadimi tərəfindən Azərbaycan Respublikasının suverenliyi uğrunda həlak olan bütün şəhidlərin ruhuna dualar oxunmuşdur.

Mərasimdən sonra iştirakçılar Gəncə Memorial Kompleksindəki muzey ekspozisiyası ilə tanış olmuşlar. "XX əsrin əvvəli", "Deportasiya və məcburi köçkünlük", "Soyqırımı və kütləvi qırğınlar", "Atəşkəs və Vətən müharibəsi dövrü", "İtkin düşənlər, kütləvi məzarlıqlar, mina terroru" və "İşıqlı gələcəyə doğru" mövzularına həsr olunmuş zallar iştirakçılarda dərin təəssürat yaratmışdır.

## Şəhid ailələri Naftalanda müalicə olunurlar

**Naftalan şəhər və Tərtər rayon icra hakimiyyətlərinin birgə təşəbbüsü ilə reallaşan sosial layihə çərçivəsində Tərtərdən bir qrup şəhid ailəsi "Gold Naftalan" Müalicə və Sağlamlıq Mərkəzində müayinə olunaraq müalicəyə başlamışlar.**

Bununla əlaqədar hər iki icra hakimiyyəti başçısı müalicə mərkəzində şəhid ailələrini ziyarət etmiş, onlara yaradılan şərait və müalicə prosesi ilə maraqlanmışlar. Səmimi şəraitdə keçən görüş zamanı şəhid ailələri onlara göstərilən hərtərəfli diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə etmişlər.




Xatırladaq ki, sosial layihəyə 2022-ci ilin iyul ayında başlanmışdır. Ötən dövr ərzində Naftalan şəhər və Yevlax, Abşeron, Nizami və Tərtər rayon icra hakimiyyətlərinin birgə reallaşdırdıqları layihələr çərçivəsində şəhid ailələri və qazilər Naftalanda fəaliyyət göstərən müalicə mərkəzlərində müayinə və müalicə olunmuşlar.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Füzulidə Vətən müharibəsi şəhidlərinin xatirəsi anılıb




**Vətən uğrunda canlarını fəda edən şəhidlərdən biri olan Şamil Əliyev və Nurlan Rzayevin anım günündə məzarları ziyarət olunub. Müqəddəs amal uğrunda şəhadətə ucalan şəhidlərin şərəfli həyatından bir daha söhbət açılıb.**

AZƏRTAC xəbər verir ki, şəhidlərin anım mərasimində ailə üzvləri ilə bərabər, rayon icra hakimiyyətinin əməkdaşları, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Füzuli rayon şöbəsinin nümayəndələri, təhsil və mədəniyyət işçiləri, şəhid ailələri, qazilər, kənd sakinləri və ziyalılar iştirak ediblər.

Şamil Xançoban oğlu Əliyev 1996-cı il martın 20-də Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olub. Şamil həm də vətənpərvərliyi ilə seçilib. Böyüyəndə hərbçi olmağı arzu edən Şamil həqiqi hərbi xidmətə də ruh yüksəkliyi ilə yollanıb. Kəşfiyyatçı olaraq xidmətini fərqlənmə ilə bitirən Şamil daha sonra ordu sıralarında xidmət etmək üçün müraciət edib. 2015-ci ildən müddətdən artıq xidmətçi kimi Vətən keşiyində dayanan Şamil Xüsusi Təyinatlı Qüvvələrdə kəşfiyyatçı olaraq xidmətini davam etdirib. 2016-cı ilin Aprel döyüşlərində də Şamil qəhrəmanlığı və şücaəti ilə seçilib. Xidməti dövründə də bir sıra fəxrli fərmanlarla təltif edilib. 2020-ci il sentyabr ayının 27-də düşmən təxribatının qarşısının alınması məqsədilə ordumuzun əks-hücumunda Şamil də ön sıralarda döyüşə qoşulub. Füzuli, Cəbrayıl, Xocavənd istiqamətlərində bir çox uğurlu tapşırıqda iştirak edib. Döyüşlərdən birində yaralanan Şamilə müalicə üçün 15 gün müddətində xəstəxana şəraitində qalmağı tapşırsalar da, o öz istəyi ilə yenidən döyüşlərə qoşulub. Oktyabrın 16-da Şamil qəhrəmancasına döyüşərək şəhid olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Şamil Əliyev ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Nurlan Yusif oğlu Rzayev 1991-ci il mayın 23-də Füzuli rayonunun Aşağı Veysəlli kəndində dünyaya göz açıb. Nurlan hələ iki yaşında olarkən ailəsi ilə birlikdə doğma yurdundan məcburi köçkün düşüb. Nurlan Rzayevin atası Yusif Rzayev də I Qarabağ müharibəsinin iştirakçısı olub. Vətən həsrətinin nə olduğunu yeniyetmə çağlarından anlayan Nurlan 2014-cü ildə hərbi xidmətə də ruh yüksəkliyi ilə yollanıb. Xidmət zamanı da nizam-intizamı ilə fərqlənib. Vətən müharibəsi başlanan tarixdən könüllü olaraq ordu sıralarına qatılıb və Füzuli, Xocavənd, Cəbrayıl, Qubadlı rayonları istiqamətlərində gedən döyüşlərdə iştirak edib. İşğal altında olan torpaqlarımızın azad olunmasında böyük fədakarlıq göstərib. Oktyabrın 17-də Qubadlı rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib və Beyləqan rayonunun Şəfəq qəsəbəsi qəbiristanlığında dəfn edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamlarına əsasən, Nurlan Rzayev ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Şəhid gizirin xatirəsi ilə bağlı tədbir keçirilib




**Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhid gizir Sübhan Mahir oğlu Abdurahmanlının xatirəsinə həsr edilmiş anım tədbiri keçirilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhidin ailə üzvləri, yaxınları və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi birdəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər şəhidimizin döyüşlərdə göstərdiyi qəhrəmanlıq və şücaətlərindən söz açaraq şərəfli həyat yolundan danışıblar.

Şəhidin ailə üzvləri və yaxınları onlara göstərilən diqqət və qayğıya, eləcə də şəhidlərimizin xatirəsinin daim uca tutulduğuna görə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya, həmçinin Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

## ZƏFƏR gündəliyi
### 21 oktyabr 2020-ci il

## İlham ƏLİYEV: "Zəngilan şəhəri işğaldan azad edilib"



### Düşmənin silah və sursatı qənimət götürülüb



Gecə cəbhənin Ağdərə, Füzuli-Cəbrayıl və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Cəbrayıl və Qubadlı istiqamətlərində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnika üzrə itki verərək geri çəkilməyə məcbur edilib.

5-ci dağatıcı alayın müdafiə sahəsində düşmənin mövqeləri ələ keçirilib, çoxlu sayda silah və sursat qənimət götürülüb. Alayın artilleriya rəisi, artilleriya divizion komandiri və 4-cü taborunun komandiri taborun şəxsi heyəti ilə birlikdə məhv edilib. 6-cı və 7-ci dağatıcı alayların müdafiə sahələrində düşmən bölmələrinin şəxsi heyəti arasında ölən və yaralananlar olub. Məhv edilənlər arasında alay komandirinin müavini Vahan Sarkisyan da olub. Döyüşlərdə 3 ədəd artilleriya qurğusu, bir neçə minaatan, şəxsi heyətlə birlikdə 3 ədəd yük avtomobili sıradan çıxarılıb.

### Tərtər şəhəri yenidən atəşə tutulub

Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Tərtər şəhəri və rayonun ərazisini artilleriya qurğularından atəşə tutub.

### Düşmənə məxsus 4 PUA məhv edilib



Saat 12:00 radələrində Ermənistan silahlı qüvvələrinə məxsus növbəti PUA hava hücumundan müdafiə bölmələrimiz tərəfindən Horadiz istiqamətində məhv edilib.

Saat 12:55-dən 13:30-dək Ermənistan silahlı qüvvələrinə məxsus daha 3 taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan hava hücumundan müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib. PUA-dan ikisi cəbhənin Füzuli istiqamətində, biri isə Tərtər istiqamətində vurulub.

### Prezident xalqa növbəti müjdəli xəbərlər verib



Prezident İlham Əliyev rəsmi "X" səhifəsində xalqa ard-arda müjdəli xəbərlər verib.

Prezidentin ilk paylaşımında qeyd edilib: "Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Gecəgözlü, Aşağı Seyidəhmədli, Zərgər kəndlərini, Cəbrayıl rayonunun Balyand, Papı, Tulus, Hacılı, Tinli kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Ali Baş Komandanın növbəti paylaşımında isə qeyd edilib: "Rəşadətli Azərbaycan Ordusu Zəngilan rayonunun Mincivan qəsəbəsi, Xurama, Xumarlı, Sarıl, Babaylı, Üçüncü Ağalı, Hacallı, Qırax Müşlan, Üdgün, Turabad, İçəri Müşlan, Məlikli, Cahangirbəyli, Baharlı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

### İlham ƏLİYEV: "Status-kvo, təmas xətti mövcud deyil"

Prezident İlham Əliyev Yaponiyanın "Nikkei" qəzetinə müsahibə verib. Dövlət başçısı vurğulayıb ki, artıq vəziyyət dəyişib. Status-kvo, təmas xətti mövcud deyil. Ona görə də indi Ermənistan rəhbərliyi daha da məntiqli davranmalıdır və işğal edilmiş ərazilərin boşaldılmasına sadiq olmalıdır: "Biz onların cəzasını yerində veririk, biz ərazilərimizi azad edirik, demək olar ki, hər gün mən Ermənistanın işğalından azad olunmuş yeni şəhər və kəndləri elan edirəm. Ermənistan döyüş meydanında çox acı məğlubiyyətlə üzləşir. Buna görə də, əlbəttə ki, onlar daha məntiqli davranmalıdırlar və birmənalı olaraq ərazilərin işğaldan azad edilməsi baş verir. Biz buna sülh danışıqları vasitəsilə nail olmaq istəyirdik. Lakin Ermənistanın qeyri-konstruktiv mövqeyi və təhrikedici addımlarına görə bu mümkün olmamışdır. Buna görə biz indi döyüş meydanında ərazilərimizi azad edirik".

Prezident həmçinin deyib ki, Ermənistanın "cəsur ordusu" haqqında bütün miflər sadəcə bir növ feyk idi. Çünki bu gün həmin ordu Azərbaycanın igid oğulları qarşısında tab gətirməyərək geri qaçır: "Biz onlara qalib gəlirik və onlar bizim torpaqlardan çıxana kimi bunu etməyə davam edəcəyik".

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

# Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki vətəndaşlarını qətlə yetirmələri, girov götürmələri ilə bağlı ifadələri elan olunub



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 20-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən Davit İşxanyan müraciət edərək əlavə iki materialın məhkəmədə sübut kimi tədqiq olunmasını xahiş edib.

Məhkəməyə sədrlik edən Zeynal Ağayev bildirib ki, qeyd olunan materiallar təqsirləndirilən şəxsin özü və ya müdafiəçisi tərəfindən məhkəməyə təqdim olunacağı təqdirdə sübut qismində tədqiq olunmasına baxılacaq.

D.İşxanyan bu barədə danışmaq üçün müdafiəçisi ilə fasilə zamanı konfidensial qaydada görüşmək istədiyini bildirib. Sədrlik edən buna razılıq verib.

Təqsirləndirilən David Babayan da bir neçə hadisəyə dair sənədin cinayət işinə əlavə edilərək sübut qismində tədqiq olunmasını məhkəmədən xahiş edib.

Sədrlik edən təqsirləndirilən şəxsə sözügedən hadisələrə dair sənədlərin məhkəməyə təqdim edildikdən sonra tədqiq olunma məsələsinə baxılacağını bildirib.

Təqsirləndirilən şəxs Arkadi Qukasyan çıxış edərək tədqiq olunan sənədlərə fikirlərini ümumi şəkildə bildirib, eləcə də tədqiq olunmuş bəzi sənədlər və orada göstərilən xüsusatlarla razılaşmadığını deyib.

Ardınca məhkəmə iclasında üzrlü səbəbdən iştirak edə bilməyən və bununla bağlı məhkəməyə müraciət etmiş zərərçəkmiş şəxslərin ifadələri elan olunub.

Elan olunan ifadəyə əsasən, zərərçəkmiş Şakir Albalıyev bildirib ki, o, 1992-ci ilin iyun ayında hərbi xidmətə çağırılıb. Öz evi və əmlakı Cəbrayıl rayonunun Dağ Tumas kəndində yerləşib. 1993-cü il avqustun 25-də Ermənistan silahlı qüvvələri onun xidmət etdiyi batalyonu mühasirəyə alaraq güclü atəşə tutublar. Həmin ərəfədə Ermənistan silahlı qüvvələri Cəbrayıl rayonunun bir sıra kəndlərini, o cümlədən yaşadığı Dağ Tumas kəndini və valideynlərinin yaşadığı Pirəsəd kəndini işğal edərək yandırıblar.

Onunla birgə Müşviq, Alməmməd, Məzahir Məmmədov, Məzahir Cəbrayılov və daha adların xatırlaya bilmədiyi bir neçə şəxs Dağ Tumas kəndində olarkən Əliyev Məhəmməd Hümmət oğlunun və Bənövşə adlı bir qoca qadının evlərinin qabağında Ermənistan silahlı qüvvələri tərəfindən güllənmiş meyitlərini görüblər.

Ş.Albalıyev avqustun 26-da Cəbrayıl rayonunun Sofulu kəndi yaxınlığında Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürülüb. O, əsirlikdə döyülüb, ağır işgəncələrə məruz qalıb. 1993-cü il avqustun 28-də əsirlikdən qaçıb.

Zərərçəkmiş şəxs Elşən Nuhiyevin elan olunan ifadəsinə əsasən, 1993-cü il iyulun 2-də Füzuli rayonunun Gorazıllı kəndində babasının evində olarkən atası Arif, anası Məxmər, qardaşı Rövşən, əmisi Vaqif, əmisinin arvadı Raisə, qızı Sevil, Sevda, əmisi Balay, dayısı Marks, nənələri Tamaşa və Maya ilə birlikdə Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülərək Xocavənd rayonuna, daha sonra Xankəndi Şəhər Uşaq Xəstəxanasına aparılıb. Həmin gün atası Arifi, əmisi Vaqifi, Balayı və dayısı Marksı onlardan ayırıb Şuşa həbsxanasına aparıblar. Xankəndi şəhərində onlardan başqa Laçın, Abşeron, Kəlbəcər rayonlarından olan müxtəlif şəxslər də saxlanılıblar.

Bundan başqa, Xankəndi şəhərində uşaq xəstəxanasında Kamo adlı, eləcə də digər erməni nəzarətçilər onlara müxtəlif növ işgəncələr veriblər. Orada 4 ay 5 gün saxlanıldıqdan sonra 1993-cü ilin noyabr ayının əvvəllərində Ağdam rayonunun Qərvənd kəndi ərazisində girovluqdan azad olub.

Təxminən 1 ay sonra anası Məxmər azad edilib. Atası Arif isə onlardan əvvəl azad olub. Atasından öyrənib ki, əmisi Vaqif girovluqda mütəmadi döyülüb, verilmiş ağır işgəncələr nəticəsində ölüb.

Elan olunan digər ifadəyə əsasən, zərərçəkmiş şəxsin hüquqi varisi qismində dindirilmiş Mehriban Kərimova bildirib ki, Ermənistan silahlı qüvvələri 1992-ci il aprelin 8-də yaşadığı Kəlbəcər rayonunun Ağdaban kəndinə silahlı hücum edərək çoxsaylı şəxsi qəsdən öldürüb, bir neçə şəxsə müxtəlif ağır bədən xəsarətləri yetirib. Onu, atası Sovet Kərimovu, Azərbaycan dili və ədəbiyyat müəllimi Sevinc Quliyevanı və sonuncunun övladları Zülfiyyə Quliyevanı və Samir Quliyevi girov götürüblər. Anası Qəməri isə həmin gün avtomatdan atəş açaraq öldürüblər.

Ermənistan silahlı qüvvələrinin hərbçiləri kənddəki evləri yaşayışın olub-olmadığına məhəl qoymadan yandırıb, yolda gördükləri dinc sakinləri odlu silahlardan atəş açaraq qətlə yetirirdilər.

Atası ilə birlikdə bu vəhşiliyin canlı şahidi olub, gözünün önündə həmkəndlilərinin vəhşicəsinə qətlə yetirildiyini görüb.

M.Kərimova bildirib ki, Ermənistan hərbçilərinin evləri talan etməsini, qiymətli əşyaları, heyvanları oğurlamasını yol getdikcə müşahidə edib.

İfadəsində həmçinin göstərib ki, girov götürüldükdən sonra onlar kəndin mərkəzində yaşlı bir qadının evinə aparılıblar. Evə daxil olanda təxminən 6 yaşında Ülviyyə adlı uşağın yerdə uzanıqlı vəziyyətdə olduğunu görüb. Məlum olub ki, Ülviyyə atası Camalın belində olarkən Ermənistan hərbçiləri atəş açaraq ikisini birlikdə qətlə yetirib. Bundan başqa, həmin vaxt orada olan Tural adlı kənd sakinini əlləri bağlı halda ot tayasına tərəf aparıblar. Oraya çatdıqda arxadan avtomat silahla atəş açıb onu vurublar, sonra isə ot tayasını yandırıb Turalı alovun içərisinə atıblar və o, yanaraq ölüb.

Sonradan eşidib ki, Turalın anasını da ağzından avtomatla atəş açaraq öldürüblər.

O, ifadəsində həmçinin bildirib ki, hücum zamanı Ermənistan silahlı qüvvələri onun dayısı, Aşıq Şəmşirin nəvəsi Qurbanov Qulu Şabər oğlunu tonqalda diri-diri yandırıblar. Bundan başqa Aşıq Şəmşirin qohumları Bəkir, Zeynəb, Qulu, Qara və digər doğmaları da Ermənistan hərbçiləri tərəfindən öldürülüblər. Onlardan bəzilərini isə evlərində ailə üzvləri ilə birlikdə yandırıblar.

M.Kərimova bir ay sonra girovluqdan azad olunub.

Elan olunan digər ifadəyə əsasən, zərərçəkmiş Bəhram İbrahimovun hüquqi varisi Sakit Feyzullayev bildirib ki, 2020-ci il oktyabrın 7-də övladının Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə iştirak edərkən şəhid olması xəbərini eşidib.

Zərərçəkmiş Murad Mahmudovun hüquqi varisi Mahir Mahmudovun elan olunan ifadəsinə əsasən, övladı 2020-ci il oktyabrın 10-da Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə Ermənistan silahlı qüvvələrinin açdığı snayper atəşi nəticəsində şəhid olub.

Zərərçəkmiş şəxs qismində tanınaraq dindirilmiş Vüqar Süleymanov, Taleh Nəbiyev, Tacəddin Kərimov, Ayxan Camalzadə, Vurğun Əbilov, Faiq Səfərov və başqalarının ifadələrinə əsasən onlar müxtəlif vaxtlarda mina və digər sursatların partlaması nəticəsində xəsarətlər alıblar.

Nabat Bağırova, Səlminə Əliyeva, Məhəmməd Mahmudov, Hikmət Abdullayev, Valeh Həsənov, Rəfail Bayramov, Samir Əlizadə, Zaməddin Həsənov, Əli Ağalarov, Azər Məmmədov, Ziyəddin Mirzəyev, Fuad İbrahimli, Dəyanət Əliyev, Dilqəm Səfərov, İlqar Fərəcov, Urfan Əzizov, Yunis Quliyev, Vahid Dadaşov, Ceyhun Rzaquliyev, İbrahim Əliyev, Nicar Əlizadə, Sadiq Əhmədov, Nazir İmranzadə, İsaq Dəmirov, Nihad Quliyev və digər zərərçəkmiş şəxslərin də ifadələri elan edilib.

Məhkəmə prosesi oktyabrın 23-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.


## bp Xəzər dənizinin Azərbaycan sektorunda Qarabağ yatağının işlənməsi üzrə Risk xidmət sazişinin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində Qarabağ layihəsi üçün seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantı podratçı tərəflərin adından hazırlanıb və dərc edilib

Sənəddə proqram üzrə təklif edilmiş fəaliyyətlərin xülasəsi verilir, onunla əlaqədar ətraf mühitə və sosial-iqtisadi sahəyə potensial təsirlər araşdırılır və tövsiyə edilən təsirazaltma və monitorinq tədbirləri təsvir edilir. ƏMTQ prosesi təklif edilmiş işlərin nəticəsində yaranan hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirlərin müəyyənləşdirilməsini, minimuma endirilməsini və mümkün olan hallarda aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

Qarabağ layihəsi üzrə seysmik tədqiqat proqramına dənizdibi sensor qovşaqlarla (OBN) seysmik tədqiqat və yüksəkdəqiqlikli (HR)/ultra yüksəkdəqiqlikli (UHR) seysmik tədqiqat daxildir. OBN tədqiqatının 2025-ci ilin dekabrında başlayacağı və 3,5 ayadək davam edəcəyi planlaşdırılır. HR/UHR tədqiqatın isə 2026-cı ilin mart-aprel aylarında həyata keçiriləcəyi və 45 günədək davam edəcəyi nəzərdə tutulur. OBN seysmik tədqiqatın yataq haqqında daha dərin məlumatların əldə olunmasına, quyuların planlaşdırılmasına və yatağın işlənmə strategiyalarının təkmilləşdirilməsinə imkan yaradacağı gözlənilir. HR/UHR seysmik tədqiqatın əsas məqsədi quyu bütövlüyünə təsir göstərə biləcək geoloji riskləri, eləcə də platformanın və digər infrastrukturun təhlükəsiz şəkildə quraşdırılmasına maneə törədə biləcək yeraltı təhlükələri müəyyənləşdirməkdir.

Maraqlı tərəflərlə məsləhətləşmələrin aparılması ƏMTQ prosesinin mühüm hissəsidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi əsas maraqlı tərəflərin birgə fikirlərinin layihələndirmə işlərində və ƏMTQ sənədində əksini tapmasını təmin edir.

ƏMTQ sənədinin və qeyri-texniki xülasənin layihə variantları bütöv olaraq Azərbaycan və ingilis dillərində hazırlanıb və aşağıdakı link və ya QR kodu vasitəsilə bp-nin veb-səhifəsindən əldə edilə bilər:

**Azərbaycan dilində:**
**https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/Qarabag-layihesi.html**

**İngilis dilində:**
**https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/Karabakh-project.html**

Qarabağ layihəsi üzrə seysmik tədqiqat proqramı üçün ƏMTQ sənədinin, həmçinin qeyri-texniki xülasənin QR kodu və linki 17 oktyabr 2025-ci il tarixindən həmin sənədləri ictimaiyyətin nəzərdən keçirməsi üçün aşağıdakı ünvanlarda yerləşdirilib:

- bp-nin Xəzər Mərkəzi Ofisinin qəbul şöbəsi, Neftçilər prospekti, 153
- M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi, 29
- Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Hüseyn Cavid küçəsi, 31
- Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Azadlıq prospekti, 20
- Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bəhram Ağayev küçəsi, 100a
- Bakı Ali Neft Məktəbinin kitabxanası, Kampus, yeni Salyan şosesinin 3-cü kilometri.

ƏMTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:

- doldurulmuş rəy formaları ilə birlikdə elektron məktubla **esiafeedback@bp.com** ünvanına və ya
- doldurulmuş rəy formaları ilə birlikdə poçt ilə AZ1010, Neftçilər prospekti, 153, Port Baku, bp Xəzər Mərkəzinə göndərə və yaxud
- doldurulmuş rəy formalarını yuxarıda sadalanan ictimai yerlərdən istənilən birinə təqdim edə bilərsiniz.

**ƏMTQ sənədinin açıqlanma müddəti 15 noyabr 2025-ci il tarixədəkdir.**

ƏMTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.


# Seysmik texnologiyalardakı yeniliklərə həsr olunmuş seminar keçirilib

**BP şirkəti İqtisadiyyat Nazirliyi və SOCAR ilə əməkdaşlıqda yüksək performanslı hesablama (HPC), hövzənin tədqiqi innovasiyaları, seysmik emal və məlumatların toplanması sahəsində irəliləyişlərə həsr olunmuş ikigünlük texniki seminar keçirib.**

Seminar BP, İqtisadiyyat Nazirliyi, SOCAR və Xəzər İnnovasiya Mərkəzinin mütəxəssislərini bir araya gətirərək bilik və təcrübə mübadiləsi aparmaq, gələcək əməkdaşlıq imkanlarını araşdırmaq məqsədi daşıyıb.

Seminarda müzakirə olunan əsas mövzular bunlar olub:

Azərbaycanın HPC sahəsində imkanları. Belə ki, İqtisadiyyat Nazirliyinin nümayəndələri ölkədə yeni yaradılmış superkompüter imkanını təqdim edərək, onun enerji sektorunda innovasiyaların sürətləndirilməsinə töhfə verə biləcək potensialını vurğulayıblar. Belə bir imkanın yaradılması Azərbaycanın öz rəqəmsal transformasiyasını dəstəkləmək üçün güclü HPC infrastrukturu qurmaq öhdəliyini əks etdirir.

BP-nin qlobal HPC təcrübəsi: BP-nin mütəxəssisləri şirkətin Hyustonda yerləşən HPC mərkəzinin fəaliyyəti barədə məlumat veriblər. Bu mərkəz şirkətin texniki innovasiyalarını irəli aparmaqla yanaşı, lay simulyasiyası, rəqəmsal süxurlar, data elmi, seysmik görüntüləmə və hövzə modelləşdirilməsi sahələrində imkanlarını genişləndirir.

Azərbaycanda seysmik məlumatların toplanması və emalı: SOCAR nümayəndələri seysmik məlumatların toplanması və emalı sahəsində gələcək planları təqdim edərək bu texnologiyaların region üçün strateji əhəmiyyətini vurğulayıblar.

Əməkdaşlıq layihələri: BP texniki imkanların artırılması və innovasiyaların sürətləndirilməsi məqsədilə həyata keçirilən mövcud və planlaşdırılan əməkdaşlıq təşəbbüslərini təqdim edib.

Seysmik texnologiyalarda süni intellektin tətbiqi: Xəzər İnnovasiya Mərkəzi SOCAR-ın seysmik süni intellekt tətbiqləri sahəsində son nailiyyətlərini göstərərək süni intellektin lay görüntüləməsinə yeniliklər gətirdiyini və qərarların verilməsini sürətləndirdiyini nümayiş etdirib.

Seminar sənaye ilə hökumət arasında davamlı əməkdaşlığın vacibliyini bir daha vurğulamaqla yanaşı, sağlam rəqabətin olmasının da regionun texnoloji irəliləyişində və Azərbaycanın qabaqcıl enerji texnologiyaları sahəsində regional lider mövqeyinin gücləndirilməsində əhəmiyyətli rol oynadığını diqqətə çatdırıb.

***"Azərbaycan"***

# Zığ dairəsi-Hava Limanı yoluna birləşdirən yanaşma yolları tikilir

**Suraxanı rayonunun Bahar və Dədə Qorqud qəsəbələrini Zığ dairəsi-Hava Limanı avtomobil yoluna birləşdirən giriş, çıxış və yanaşma yollarının tikintisi işləri həyata keçirilir.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən AZƏRTAC-a bildirilib ki, yanaşma yollarının ümumi uzunluğu 1600 metr təşkil edir. Hazırda layihə üzrə ərazidə qazma və dolğu işləri görülür. Texnoloji ardıcıllığa uyğun olaraq növbəti mərhələdə yol əsasının tikintisi və yeni asfalt-beton örtüyünün döşənməsi işlərinin yerinə yetirilməsi nəzərdə tutulur.

Layihənin icrası nəticəsində Bahar və Dədə Qorqud qəsəbələrinin sakinləri üçün Zığ dairəsi-Hava Limanı yolu ilə birbaşa nəqliyyat bağlantısı təmin ediləcək.

Bununla yanaşı, hazırda Bahar və Dədə Qorqud qəsəbələrini birləşdirən mövcud yolun da təmiri işləri aparılır. Uzunluğu 790 metr olan bu yol üzrə köhnə asfalt-beton örtüyünün frezlənməsi işləri görülür.

# Milli Kitabxanada Zəngilan Şəhəri Gününə həsr olunmuş sərgi açılıb




**Zəngilan Şəhəri Günü münasibətilə Milli Kitabxanada "20 Oktyabr - Zəngilan Şəhəri Günü" adlı virtual sərgi və eyniadlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.**

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, virtual sərgidə rəsmi sənədlər, fotolar, Zəngilan şəhəri, eləcə də aparılan bərpa-quruculuq işləri haqqında, Zəngilana Böyük qayıdışın yüksək səviyyədə təmin edilməsi, Vətən müharibəsi və Böyük Zəfəri əks etdirən Milli Kitabxananın fondunda mühafizə olunan kitablar, məqalələr və s. materiallar Azərbaycan və xarici dillərdə nümayiş olunur.

Virtual sərgi ilə tanış olmaq istəyənlər https://anl.az/el/vsb/Zengilan/index.htm linkindən istifadə edə bilərlər.

Ənənəvi sərgidə isə Zəngilan şəhərinin tarixi, toponimləri, tarixi əhəmiyyət daşıyan qədim maddi-mədəniyyət abidələri haqqında, Vətən müharibəsindən, şanlı Qələbədən, tarix yazan qəhrəmanlardan, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçən əsgər və zabitlərin, şəhidlərin döyüş yolundan bəhs edən Azərbaycan və müxtəlif dillərdə kitablar nümayiş olunur.

# Azərbaycan Özbəkistanda beynəlxalq sərgi-festivalda təmsil olunub



**Özbəkistanın Xarəzm vilayətinin qədim Xivə şəhərində "Arda Xivə" turizm kompleksində "Xalçaların parıltısı" adlı birinci beynəlxalq sərgi-festival keçirilib. Sərgidə Özbəkistanın müxtəlif bölgələrindən, həmçinin Azərbaycan, Qırğızıstan, Qazaxıstan, Tacikistan, Türkmənistan və Əfqanıstandan gələn sənətkarlar, alim və incəsənət xadimləri, mühəndislər, dizaynerlər, sahibkarlarla yanaşı, Xarəzm vilayətinin minlərlə sakini və qonaqları iştirak ediblər.**

Sərgidə ölkəmizi Özbəkistandakı səfirliyimizin nəzdində fəaliyyət göstərən Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi və bu qurumun təşəbbüsü ilə Bakıdan gələn xalçaçı-rəssam, miniatür ustası Ağasadıq Süleymanov təmsil ediblər.

Mədəniyyət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, sərgi-festivalın birinci günü keçirilən mətbuat konfransında respublika "Hunərmənd" Assosiasiyasının sədri Rəsuljon Mirzəhmədov, Xarəzm vilayəti hakiminin müavini Botir Səidov və digər çıxışçılar ilk dəfə keçirilən xalça festivalının məqsədi, əhəmiyyəti və beynəlxalq əməkdaşlığın perspektivlərindən danışıblar.

Botir Səidov bildirib ki, hazırda Xarəzm vilayətində 500-dən çox sənətkar xalçaçılıqla məşğuldur və onların toxuduğu xalçalara təkcə Özbəkistanda deyil, dünyanın müxtəlif ölkələrində böyük maraq göstərilir.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Maarifli qeyd edib ki, xalça Azərbaycan xalqının minillik mədəni irsinin, milli sənətinin və estetik dünyagörüşünün ayrılmaz hissəsidir. O vurğulayıb ki, Azərbaycan xalça sənəti yalnız məişət və bədii sənət növü kimi deyil, həm də xalqın ruhunu, tarixi yaddaşını, mənəvi dəyərlərini və bədii zövqünü ifadə edən mühüm mədəni fenomen kimi dünya miqyasında tanınır.

Sonra beynəlxalq sərgi-festival çərçivəsində milli xalçaçılıq sənətinə həsr olunmuş sərgi açılıb.

Sərginin Azərbaycan guşəsində Azərbaycan Mədəniyyət Mərkəzinin təqdim etdiyi Qarabağ, Naxçıvan, Gəncə, Quba, İrəvan, Təbriz, Borçalı, Dərbənd və digər bölgələrimizə aid xalça nümunələri, həmçinin Azərbaycan xalça sənətinə dair albomlar nümayiş olunub. Ağasadıq Süleymanov öz kiçik dəzgahında xalçaların toxunmasını əyani şəkildə təqdim edib.


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*2025-ci il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

ASCO-nun struktur idarələrinə tələb olunan yumşaq inventarların (LOT-1 və LOT-2 üzrə) satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 oktyabr 2025-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***

# Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti seçilən Tufan Erhürman kimdir?

**Şimali Kipr Türk Cümhuriyyətində (ŞKTC) keçirilən prezident seçkilərinin ilk turunda Cümhuriyyət Türk Partiyasının (CTP) lideri Tufan Erhürman qalib gəlib. Bu barədə ŞKTC Mərkəzi Seçki Komissiyasının sədri Bertan Özerdağ ilkin qeyri-rəsmi nəticələrə istinadən məlumat verib.**



Ötən bazar günü 777 seçki məntəqəsində səs verən seçicilərin fəallığı 64,87 faiz, qeydə alınmış seçicilərin ümumi sayı 218 min 313 nəfər olub. Tufan Erhürman 62,76 faiz səs toplayıb. Müstəqil namizəd və hazırkı Prezident Ersin Tatar isə 35,81 faiz səs əldə edib.

1970-ci il sentyabrın 11-də Lefkoşada doğulan yeni Prezident 1992-ci ildə Ankara Universitetinin Hüquq fakültəsini bitirib və həmin universitetdə İnzibati hüquq şöbəsində elmi işçi kimi çalışıb. Doktorluq dərəcəsi alıb. Uzun illər Ankara, Hacettepe və Orta Doğu Texniki universitetlərində dərs deyən Erhürman həm də Türkiyə Ədliyyə Nazirliyində çalışaraq Ombudsman sisteminin qurulmasında iştirak edib. O, 2018-ci ildə qurulan ŞKTC koalisiya hökumətində baş nazir vəzifəsində çalışıb. İngilis dilini mükəmməl bilir. Evlidir və bir uşaq atasıdır.

Bildirildiyi kimi, Ersin Tatar və Tufan Erhürman Kipr məsələsi, Türkiyə ilə əlaqələr və xarici siyasətlə bağlı fərqli düşüncə məktəblərini təmsil edirlər. Məsələn, Tufan Erhürman Ersin Tatarın "ikidövlətli həll" ideyasına qarşı çıxaraq federal birgəyaşayış modelini müdafiə edir və bu mövqe ona həm beynəlxalq arenada, həm də seçiciləri arasında "praqmatik islahatçı" imici qazandırıb.

Tufan Erhürman ilkin açıqlamasında "Bu seçkidə uduzan yoxdur, biz Kipr türk xalqı olaraq birlikdə qalib gəldik" deyib. O, "Anadolu" Agentliyinə açıqlamasında Türkiyə ilə münasibətlərə də toxunub. Erhürman seçildikdən sonra Şimali Kipr Türk Cümhuriyyətinin xarici siyasətinin Ankara ilə məsləhətləşmələrlə formalaşacağını bəyan edib. Kütləvi bir qara təbliğat kampaniyası aparıldığını, ancaq Türkiyə rəsmilərinin onu çox yaxşı tanıdığını qeyd edən Erhürman "Türkiyə ilə məsləhətləşmədən Kiprdə xarici siyasəti müəyyən etmək heç vaxt bir seçim olmayıb və mənim səlahiyyətim dövründə də seçim olmayacaq" deyə vurğulayıb.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyanat yayaraq T.Erhürmanı təbrik edib: "Kipr türk qardaşlarımızın iradəsini sandıq başına əks etdirən bu seçkinin ölkələrimiz və bölgəmiz üçün faydalı olacağına ümid edirəm".

Xatırladaq ki, bu prezident seçkiləri ŞKTC tarixində 9-cudur.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

# "Azərenerji" ASC Xudafərin və Qız Qalası Su-Elektrik stansiyalarının layihələndirilərək tikintisi işlərinin satın alınması üzrə

## *Açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

İddiaçılar Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10-dan (Əlaqələndirici şəxs: Həmid İsazadə, telefon: (012)-598-05-56) ala bilərlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Məhkəmə qərarları ilə müflis elan olunmaması və ya bu prosedura başlanmaması, sahibkarlıq fəaliyyəti dayandırılmış şəxs olmaması, habelə borcuna görə əmlakının üzərinə tələbin yönəldilməməsi haqqında arayış;*
- *Təchizatçı qismində çıxış edən fiziki şəxsin, yaxud hüquqi şəxsin icra orqanının rəhbərinin müvafiq satınalma predmeti üzrə müvafiq fəaliyyətlə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi haqqında arayış;*
- *Təchizatçı qismində çıxış edən fiziki şəxsin və ya hüquqi şəxsin icra orqanının rəhbərinin satınalmaya dair elanın verilməsindən (dəvətin göndərilməsindən) əvvəlki 5 (beş) il ərzində iqtisadi sahədə cinayətlərə, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan digər cinayətlərə, kibercinayətlərə, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətlərinə görə məhkum olunmaması haqqında arayış;*
- *Müqavilənin icrası zamanı istifadə olunacaq əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanının olması haqqında arayış;*
- *Son bir il ərzində iki dəfə və ya daha çox Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə inzibati cərimənin tətbiq edilməməsi haqqında arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının maliyyə hesabatının surəti (təsdiqlənmiş kənar audit rəyilə);*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *İddiaçının müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyaların, su-elektrik stansiyaların layihələndirilərək tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *İddiaçı şirkətin elektrik stansiyaları, su-elektrik stansiyaları üzrə ən azı 3 layihədə baş podratçı qismində elektrik stansiyaların, su-elektrik stansiyaların layihələndirilərək tikintisi üzrə 212 000 000 AZN dəyərində təcrübəyə malik olmasına dair təsdiqedici sənədlər (Müqavilələr, Təhvil-təslim aktları, forma-2, forma-3);*
- *İddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi halları) və tələb olunan işlərin görülməsi üçün texniki bazasının olması.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri, tender təklifi və bank təminatı ikiqat zərfdə **4 dekabr 2025-ci il saat 12:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına Ümumi şöbəyə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **4 dekabr 2025-ci il saat 16:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Şamil Kərimova atası

**FEYZULLA KƏRİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibinin müavini Mədət Quliyev Elşən Camalova həyat yoldaşı

**İRADƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Əhliman Əmiraslanov Şadlinskilər ailəsinə əzizləri

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Səttar Möhbalıyev Dövlət Gömrük Komitəsi Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin rəisi, general-mayor Anar Cahangirova anası

**SVETLANA CAHANGİROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini, general-leytenant Ceyhun Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti rəisinin birinci müavini Ceyhun Şadlinskiyə əzizi

**NADİR İSGƏNDƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Akademik Mehdi Mehdizadə adına Cəbrayıl şəhər tam orta məktəbin 1980-ci il buraxılış 10A sinfinin məzunları sinif yoldaşları Naibə Məhərrəmovaya əzizi

**FƏTİŞ HƏMZƏ OĞLU MƏHƏRRƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


**Qəzetin daim yenilənən rəsmi internet ünvanı:**
**www.azerbaijan-news.az**


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 4085
Sifariş 2159

Qiyməti 60 qəpik